AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİ İNKİŞAF NAZİRLİYİ

# ÜTT-yə ÜZV OLMA NƏŞRLƏRİN SERİYASI

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT SAHƏSİNDƏ QANUNVERİCİLİYİNİN TƏHLİLİ

S.H.Abdullayev
G.F.Dadaşeva
C.Ə.Feyzullayev

"Adiloğlu" nəşriyyatı
Bakı 2006

Az
A 14

***Broşurları əldə etmək,***
***rəy və təklifləri təqdim etmək üçün***
***Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinə***
***müraciət edin***
***Ünvan: AZ1066, Azərbaycan Respublikası,***
***Bakı ş., Niyazi küç. 23***
***Tel.: 5980335; 5980337***
***Faks: 5980335***
***e-mail: office@wto.az; office@economy.gov.az***
***internet: www.wto.az; www.economy.gov.az***

A 14 S.H.Abdullayev, G.F.Dadaşeva, C.Ə.Feyzullayev
“**ÜTT-yə üzv olma:**
*Azərbaycan Respublikasının*
*xarici ticarət sahəsində*
*qanunvericiliyinin təhlili*”.
Bakı, “Adiloğlu” nəşriyyatı, 2005, 86 səh.

***AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT VƏ İNKİŞAF AGENTLİYİNİN TEXNİKİ YARDIM LAYİHƏSİNİN MALİYYƏ VƏ TEXNİKİ DƏSTƏYİ İLƏ NƏŞR OLUNMUŞDUR***

**İSBN: 978-9952-25-038-1**

A $\frac{0604010374}{121\text{-}2004}$ qrifli nəşr

© **S.H.Abdullayev**
**G.F.Dadaşeva,**
**C.Ə.Feyzullayev**

## QISA XÜLASƏ

Hazırkı nəşrdə Azərbaycan Respublikasında mallarla xarici ticarətin tənzimləməsinin inkişafı tarixi nöqteyi-nəzərdən təhlil olunur və Azərbaycan öz müstəqilliyini 1991-ci ildə qazandığı vaxtda mövcud olan vəziyyətdən başlayaraq qanunverici tənzimləmənin bu günə qədər keçdiyi yolu göstərilir. Burada həmçinin tənzimləyici rejimin Ümumdünya Ticarət Təşkilatının standart və normaları ilə uyğunlaşdırılması üçün dəyişikliklər tələb edə biləcək qanunvericiliyin sahələri təhlil olunur.

# MÜNDƏRİCƏT


Qısa xülasə ........................................................................................ 3

Ön söz ........................................................................................ 9

Bölmə 1. Azərbaycan Respublikasının
xarici ticarət qanunvericiliyi. ........................................................ 11
Ümumi hissə ........................................................................................ 11

Bölmə 2. Gömrük qanunvericiliyi ..................................................... 15

2.1. Dövlət Gömrük Komitəsi ..................................................... 15
2.2. Gömrük qanunvericiliyi ..................................................... 17
2.2.1. Gömrük qiymətləndirilməsi ..................................................... 20
2.2.2. Malın mənşə ölkəsinin müəyyən edilməsi qaydaları ................ 21
2.2.3. Gömrük rüsumları və yığımları ............................................. 22
2.2.4. Gömrük nəzarətinin aparılması
sahəsində qanunvericilik ..................................................... 24
2.2.5. Əqli mülkiyyətin qorunması ..................................................... 25
2.2.6. Mədəniyyət sərvətlərinin qorunması ...................................... 26

Bölmə 3. Xarici ticarətdə idxal və ixrac məhdudiyyətləri ..................... 27

3.1. İdxal məhdudiyyətləri ..................................................... 27
3.1.1. Ümumi ........................................................................................ 27
3.1.2. İdxal məhdudiyyətləri sahəsində qanunvericiliyin inkişafı ........... 28
3.1.3. Hazırkı vəziyyət ..................................................... 31
a) Nazirlər Kabinetinin icazəsi ..................................................... 32
b) Müqavilənin ekspertizadan
və qeydiyyatdan keçirilməsi tələbləri ...................................... 32
c) Lisenziyalar ........................................................................ 33
ç) İxrac nəzarəti qanunvericiliyinə əsasən
idxal əməliyyatları ..................................................... 34
3.2. İxrac məhdudiyyətləri ..................................................... 35

3.2.1. Ümumi ....................................................................................35
3.2.2. İxrac məhdudiyyətləri sahəsində
qanunvericiliyin inkişafı ............................................................ 35
3.2.3. Hazırkı vəziyyət ....................................................................38
a) Nazirlər Kabinetinin sərəncamı ............................................ 38
b) Müqavilənin ekspertizadan
və qeydiyyatdan keçirilməsi tələbləri ................................... 39
c) Mədəni sərvətlər ................................................................. 40
ç) Metal qırıntıları .................................................................. 40
d) Prekursorlar ....................................................................... 40
e) İkili təyinatlı mallar ............................................................ 41
3.3. Yekun ........................................................................................ 41

<u>Bölmə 4. Xarici ticarətdə kəmiyyət məhdudiyyətləri</u> .......................... 43

4.1. İdxal kvotaları ............................................................................ 43
4.2. İxrac kvotaları ............................................................................ 43
4.3. Kvotaları tətbiq edən dövlət orqanı ............................................... 43

<u>Bölmə 5. Xarici ticarətə təhlükəsizlik,
keyfiyyət və təsvir tələbləri</u> .................................................. 47

5.1. Keçmiş Sovet İttifaqında standartlaşdırma .....................................47
5.2. MDB çərçivəsində əməkdaşlıq ......................................................48
5.3. Yeni orqanların yaradılması ......................................................... 48
5.4. “Standartlaşdırma haqqında” Qanun ............................................ 50
5.5. Standartlaşdırma, Metrologiya
və Patent üzrə Dövlət Agentliyinin yaradılması ............................ 53
5.6. Yekun ........................................................................................ 53

<u>Bölmə 6. Xarici ticarətə dair sanitariya
və fitosanitariya qanunvericiliyi</u> ............................................ 55

6.1. Sanitariya qanunvericiliyinin inkişafı ........................................... 55
6.2. Heyvanlarla ticarəti tənzimləyən orqanların yaradılması ............... 56
6.3. Fitosanitar tədbirlər ..................................................................... 58

6.4. Toxumlarla ticarətin tənzimlənməsi .............................................. 59
6.5. Pestisidlər üzrə tələblər ................................................................ 61
6.6. “Fitosanitar nəzarəti haqqında” Qanun ......................................... 63
6.7. Yeyinti məhsulların tənzimlənməsi ................................................ 65
6.8. Sanitar və fitosanitar tədbirlər üzrə
digər qanunvericilik aktları ......................................................... 68
6.9. Baytarlıq haqqında yeni qanun ..................................................... 69
6.10. Yekun ............................................................................................. 72

Bölmə 7. İdxal və ixracla bağlı hesablaşmalara dair tələblər ................ 73

7.1. İxrac .................................................................................................. 73
7.2. İxracdan əldə olunan gəlirlərin köçürülməsi ................................. 74
7.3. İdxal .................................................................................................. 75

Bölmə 8. İdxal və ixrac olunan mallara tətbiq olunan
gömrük rüsumları, vergilər və digər ödənişlər ........................77

8.1. Gömrük rüsumları ........................................................................ 77
8.2. Əlavə dəyər vergisi ......................................................................... 79
8.2.1. ƏDV-dən azad olunan idxal ........................................................ 79
8.3. Aksiz vergisi ................................................................................... 79
8.3.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi .............................. 81
8.3.2. Digər normativ hüquqi aktlar ..................................................... 81
8.4. Gömrük rəsmiləşdirilməsi yığımları .............................................. 82
8.5. İdxal lisenziyanın verilməsinə görə ödənilən rüsum ...................... 83
8.6. İxracat vergisi ................................................................................ 84

## ÖN SÖZ

Sovet İttifaqının 1991 ildə dağılmasından sonra müstəqilliyini qazanan Azərbaycan Respublikası bir sıra çətinliklərlə üzləşdi. Dövlətin idarə olunması üçün sadəcə olaraq tələb olunan müxtəlif nazirlik və təşkilatları təsis etmək kifayət deyildi. İqtisadi və ictimai düşüncədə baş verən dəyişikliklər baxımından, digər ölkələrlə münasibətlər qurmaq və beynəlxalq aləmdə özünə məxsus yer tutmaq üçün Azərbaycan, idxal və ixracı da daxil olmaqla, malların istehsalı və satışı üçün müvafiq tənzimləyici rejim təşkil etmək məcburiyyətində idi. Bu məqsədlə xarici ticarətin müxtəlif sahələri üçün müvafiq rejimləri formallaşdırmaq zərurəti yaranmışdır. Bu rejimləri formallaşdıraraq bazar iqtisadiyyatı, xarici ticarətin liberallaşdırılması və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prinsiplərini nəzərə almaq lazım idi. Bütün bu məsələləri həll etmək üçün geniş qanunvericilik islahatları tələb olunurdu və aşağıda göstərildiyi kimi, bu islahatlar bir neçə mərhələdən ibarət idi.

Azərbaycan Respublikasının Sovet İttifaqından iqtisadi ayrılması "*Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında*" 116-XXI nömrəli, 25 may 1991-ci il tarixli Konstitusiya Qanununun ("*İqtisadi Müstəqillik haqqında Qanun*") qəbul olunması ilə baş vermişdir. İqtisadi Müstəqillik haqqında Qanunda, Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin müstəqilliyi, torpaq, yerin təki, daxili və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi və hava hövzəsi üzərində Azərbaycan Respublikasının müstəsna mülkiyyəti, xarici iqtisadi əlaqələri bütün səviyyələrdə (dövlət, hüquqi və fiziki şəxslər) təşkil etmək hüququ, bank işinin və pul tədavülünün müstəqil surətdə təşkil etmək hüququ və xüsusi mülkiyyət hüququ kimi əsas prinsiplər əks olunmuşdur.

Azərbaycan Respublikasının siyasi müstəqilliyi "*Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında*" 222-XII nömrəli, 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı ("*Müstəqillik haqqında Akt*") ilə rəsmiləşdirilmişdir. Müstəqillik haqqında Aktın 4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası

Müstəqillik haqqında Aktın müddəalarına zidd gəlməyən hissələrində qüvvədə qalırdı. Bundan başqa, bəzi Sovet qanunlarının Azərbaycan Respublikası ərazisində tətbiq edilməsi "*Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında*" 359 nömrəli, 28 oktyabr 1992-ci il tarixli Qanunla tənzimlənirdi. Bu qanunlar Azərbaycan qanunları ilə əvəz edilənədək öz qüvvəsini müvəqqəti olaraq saxlayırdı. Buna baxmayaraq, SSRİ-də xarici ticarət dövlət inhisarında olduğundan xarici ticarətin Azərbaycanda aparılmasının hüquqi əsasları yenidən işlənib hazırlanmalı idi. Bu cür siyasət formallaşdıqca, qanunvericilik də inkişaf edirdi. Bu nəşrin məqsədi də mallarla xarici ticarətin müxtəlif sahələrini tənzimləyən qanunvericiliyin inkişafını göstərmək və təhlil etməkdir. Bununla belə yalnız xarici ticarət barədə qanunvericilik sahələri yox, xarici ticarətə təsir göstərə bilən sahələr də əhatə olunub. Bu sahələr aşağıdakıları aid etmək olar:

- ümumi ticarət qanunvericiliyi;
- gömrük qanunvericiliyi;
- xarici ticarətdə idxal və ixrac məhdudiyyətləri;
- xarici ticarətdə kəmiyyət məhdudiyyətləri;
- xarici ticarətə təhlükəsizlik, keyfiyyət və təsvir tələbləri;
- xarici ticarətə aid sanitariya və fitosanitariya qanunvericiliyi;
- idxal və ixracla bağlı hesablaşmalara dair tələblər; və
- idxal və ixrac olunan mallara tətbiq olunan gömrük rüsumları, vergilər və digər ödənişlər.

Nəzərə almaq lazımdır ki, müstəqilliyin ilk illərində tənzimləyici təşkilat və qurumların xarici ticarətə ümumi münasibəti hələ də Sovet İttifaqının xarici ticarətin total məhdudlaşdırılması mövqeyinə əsaslanırdı. Azərbaycan bu sahələrin hər birində müvafiq liberal rejimləri qurmalı, onların effektiv tətbiqi üçün lazımi təşkilatları təsis etməli idi. Bu məsələlərin hər biri hazırkı nəşrin ayrı-ayrı bölmələrində müzakirə edilir.

## BÖLMƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT QANUNVERİCİLİYİ. ÜMUMİ HİSSƏ

Azərbaycan Respublikasının xarici ticarətlə bağlı qanunvericiliyi 1992-ci ildə təqdim edilməyə başladı və ilk öncə ölkədən malların ixracını tənzimləmək məqsədini daşıyırdı.[1] Ticarətin tənzimləməsində növbəti mərhələ 1994-cü ildə başlamışdır. Bu mərhələdə hökumət xarici ticarətə aid bütün məsələləri əhatə edən daha ətraflı qaydaları təqdim etməyə çalışırdı.

Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası xarici ticarətin müvəqqəti qaydaları haqqında*" 62 nömrəli, 15 fevral 1994-cü il tarixli Qərarı idxal və ixrac kvotaları və lisenziyalaşdırmasını, xarici ticarətdə hesablaşma qaydalarını və bəzi digər məsələləri əhatə etmişdir. Qısa bir müddətdən sonra, 2 iyun 1994-cü il tarixində bu qaydalar daha ətraflı yanaşma ilə fərqlənən Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında*" 222 nömrəli Qərarı ilə əvəz olunmuşdu. 222 nömrəli Qərar tərəfindən təsdiqlənən xarici ticarətin təşkili haqqında qaydalarda aşağıdakı məsələlər əks olunmuşdur: ixracın müxtəlif növləri (dövlət sifarişi ilə malların ixracı, əmtəə birjalarında satış yolu ilə ixrac, kreditə ixrac, təkrar ixrac, konsiqnasiya yolu ilə ixrac, barter əməliyyatları, müvəqqəti ixrac, sərhədyanı ticarət, kooperasiya əsasında ixrac, kompensasiya əsasında ixrac) və ixracın aparılması qaydaları, idxalın növləri (Respublika Vahid Valyuta Fondunun[2] vəsaiti hesabına maliyyələşdirilən idxal əməliyyatları, hüquqi şəxslərin öz vəsaitləri hesabına aparılan idxal əməliyyatları, konsiqnasiya ticarəti yolu ilə idxal) və idxalın aparılması qaydaları, xarici ticarətdə hesablaşmaların aparılması qaydaları və gömrük orqanlarına təqdim edilməsi tələb olunan sənədlər.

---

[1] AR Prezidentinin "*Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında*" 136 nömrəli, 13 avqust 1992-ci il tarixli Fərmanı; AR Prezidentinin "*Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiqi haqqında*" 118 nömrəli, 10 sentyabr 1992-ci il tarixli Sərəncamı; AR Nazirlər Kabinetinin "*Strateji əhəmiyyətli malların ixracının lisenziyalaşdırılması haqqında*" 515 nömrəli, 22 sentyabr 1992-ci il tarixli Qərarı.

[2] Bax Bölmə 7 bənd 7.2.-yə.

222 nömrəli Qərar 15 noyabr 1995-ci il tarixdə Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 247 nömrəli Qərarı ilə əvəzlənmişdir. 247 nömrəli Qərarın adından göründüyü kimi, onun məqsədi xarici ticarəti bir qədər sərbəstləşdirməkdən ibarət idi. Nazirlər Kabinetinin 247 nömrəli Qərarı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında Əsasnamədə artıq dövlət sifarişi ilə malların ixracı ixracın növləri sırasında göstərilməmişdir. İdxal növlərinin siyahısı da yeniləşmişdir: dövlət büdcəsi və kreditlər hesabına idxal, sifarişçinin xammalı əsasında idxal, konsiqnasiya əsasında idxal, rezidentlərin öz vəsaitləri hesabına idxal.

1996-cı ildən etibarən xarici ticarətin tənzimlənməsi AR Prezidentin Fərmanları əsasında aparılır.[3] Lakin bu ticarətin tənzimlənməsinə yanaşma eyni olaraq qalmışdı və bu Fərmanlarla təsdiqlənən xarici ticarətin tənzimlənməsi qaydalarında eyni məsələlər əks olunub. İdxal və ixrac əməliyyatların təsnifatı da demək olar ki, eynidir. Fərqlər yalnız xarici ticarətdə hesablaşmalar və məhdudiyyətlər məsələlərində mövcuddur.[4] Bu məsələlərdə dəyişikliklər baş verməsi yeni normativ-hüquqi aktların qəbuluna ehtiyac duyulurdu. Məhz buna görə də bir il ərzində bir-birini əvəzləyən üç Fərman qəbul edilmişdir. Yenə də qeyd etmək lazımdır ki, bu dəyişikliklər ümumiyyətlə xarici ticarətin dövlət tərəfindən tənzimlənməsini liberallaşdırırdı.

Hazırda bir sıra dəyişikliklərlə AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli, 24 iyun 1997-ci il tarixli Fərmanı qüvvədədir. Həmin Fərmanla təsdiqlənmiş Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları xarici ticarət əməliyyatlarını dörd növə bölür:

---

[3] AR Prezidentin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında*" 481 nömrəli, 6 avqust 1996-cı il tarixli, "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında*" 520 nömrəli, 17 dekabr 1996-cı il tarixli və "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli, 24 iyun 1997-ci il tarixli Fərmanları.

[4] Bax Bölmə 3.

ixrac əməliyyatları (respublikada istehsal, emal, təkrar emal olunan malların ixracı, kreditə ixrac əməliyyatları, təkrar ixrac (reeksport) əməliyyatları, konsiqnasiya yolu ilə ixrac əməliyyatları, müvəqqəti ixrac əməliyyatları), idxal əməliyyatları (rezidentlərin öz vəsaitləri hesabına idxal), digər idxal-ixrac əməliyyatları (AR Nazirlər Kabineti tərəfindən aparılan ixrac-idxal əməliyyatları, müvafiq dövlət orqanlarından rəy və lisenziya alınmaqla aparılan idxal-ixrac əməliyyatları, barter əməliyyatları, kooperasiya əməliyyatları və sərhədyanı ticarətlər) və Dövlətlərarası Sazişlərə əsasən ticarət əməliyyatları.

609 nömrəli Fərmanın bəzi müddəaları digər bölmələrdə daha ətraflı müzakirə ediləcək. Onu da qeyd etmək lazımdır ki, Xarici ticarəti tənzimləyən ümumi qanunun olmaması bir sıra problemlər yaradır. Bu baxımdan xarici ticarəti tənzimləyən qanunun olması və ondan irəli gələn məsələlərin Prezident tərəfindən qəbul edilən normativ sənədlərlə tənzimlənməsi məqsədəuyğun olardı.

# BÖLMƏ 2. GÖMRÜK QANUNVERİCİLİYİ

## 2.1. Dövlət Gömrük Komitəsi

Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 15 yanvar 1992-ci il tarixli Qərarı əsasında formalaşmışdır.[5] Qərarın nəticəsində keçmiş SSRİ Gömrük Komitəsinin Azərbaycan Gömrük İdarəsi bazasında yeni yaranmış dövlətin rəsmi gömrük orqanının təməli qoyulmuşdur. Qərarda həmçinin Azərbaycan Respublikasının Prezidentinə tövsiyə edilir ki, Azərbaycan Respublikasının Gömrük Komitəsinin yaradılması məsələsinə baxsın. Bu tövsiyəyə uyğun olaraq, 30 yanvar 1992-ci il tarixində Dövlət Gömrük Komitəsi AR Prezidentinin Fərmanı vasitəsilə təsis edilmişdir.[6] Gömrük Komitəsinin vəzifə və funksiyaları, onun 18 aprel 1992-ci il tarixdə təsdiq olunmuş Əsasnaməsində sadalanmışdır.[7] Əsasnaməyə uyğun olaraq Gömrük Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında fəaliyyət göstərən Azərbaycan Respublikasının mərkəzi gömrük orqanı statusuna malik olmuşdur.

Gömrük Komitəsinin qarşısında Azərbaycan Respublikasının gömrük siyasətinin həyata keçirilməsi, Azərbaycan Respublikasının iqtisadi mənafelərinin qorunması kimi vəzifələr qoyulmuşdur.

Gömrük haqlarının, rüsumlarının, vergilərinin, başqa məcburi ödənişlərin yığılması və büdcəsinə keçirilməsi qaydası AR Nazirlər Kabineti tərəfindən müəyyən edilməli idi. Bir qədər sonra, 1 iyun 1992-ci il tarixdə Gömrük Komitəsinə gömrük gəlirinin, daxil olan gömrük rüsumlarının, vergilərin və s. yığılması, uçotu və sistemləşdirilməsi

---

[5] Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının "*Keçmiş SSRİ Gömrük Komitəsinin Azərbaycan Gömrük İdarəsinin Azərbaycan Respublikasının tabeliyinə keçirilməsi haqqında*" 60 nömrəli, 15 yanvar 1992-ci il tarixli Qərarı.

[6] AR Prezidentinin "*Azərbaycan Respublikası Gömrük Komitəsinin yaradılması* haqqında" 561 nömrəli, 30 yanvar 1992-ci il tarixli Fərmanı.

[7] AR Prezidentinin "Azərbaycan Respublikası Gömrük Komitəsinin təşkili və fəaliyyəti məsələləri haqqında" 688 nömrəli, 18 aprel 1992-ci il tarixli Fərmanı.

Azərbaycan Respublikası Gömrük Komitəsinə həvalə edilmişdir. [8] Nazirlər Kabineti həmçinin gömrük sisteminin inzibati strukturunu və yeddi regional gömrükxanaları təsdiqləmişdir. [9] O, həmçinin, Gömrük Komitəsinə tabe olan elmi-informasiya hesablama mərkəzinin, gömrükxana işçiləri hazırlayan və ixtisasını artıran mərkəzin, mərkəzi gömrük laboratoriyasının və təsərrüfat hesablı xarici iqtisadi "Azərterminalkompleks" birliyinin təsis edilməsini təsdiqləmişdir. 19 yanvar 1994-cü il tarixində gömrükxanaların sayı 12-yə çatdırılmışdır.[10]

Yeni Əsasnamə və təşkilatı struktur AR Prezidentinin "*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında*" 7 nömrəli 27 oktyabr 1998-ci il tarixli Fərmanı ilə təsdiqlənmişdir. Yeni qaydaların təqdim edilməsinin səbəbi Gömrük Komitəsinə əlavə vəzifələr həvalə edən Gömrük Məcəlləsinin 1997-ci ildə qəbul edilməsi və bununla əlaqədar Gömrük Komitəsinin statusunda baş verən dəyişikliklər idi. Yeni Əsasnamənin 1-ci bəndinə əsasən Gömrük Komitəsi icra hakimiyyətinin mərkəzi orqanına çevrilmişdir, yəni onun statusu nazirlik statusuna bərabərləşdirilmişdir. Bundan əlavə, yeni Əsasnamə daha təfsilatlı idi və Gömrük Komitəsinin vəzifə, hüquq və funksiyaları daha aydın şəkildə təsvir edirdi. Gömrükxanaların sayı 14-ə çatdırılmış, hava nəqliyyatında Baş Gömrük İdarəsi təsis edilmişdir.

Sonuncu dəfə Gömrük Komitəsi 19 iyun 2001-ci il tarixdə yenidən təşkil olundu. Gömrükxanaların sayı 15-ə çatdırılmış, yeni enerji gömrükxanası və Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi İdarəsi yaranmışdılar.[11]

---

[8] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası Gömrük Komitəsinin məsələlər haqqında*" 301 nömrəli 1 iyun 1992-ci il tarixli Qərarı.

[9] Bax qeyd 8-ə.

[10] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Gömrük Komitəsinin məsələləri haqqında" 1992-ci il 1 iyun tarixli, 301 nömrəli qərarına əlavə və dəyişikliklər edilməsi və "Gömrük fəaliyyətinin bəzi növlərindən daxil olan vəsaitlərin istifadə olunması haqqında" 1991-ci il 6 sentyabr tarixli, 304 nömrəli qərarının qüvvəsini itirməsi haqqında*" 19 nömrəli, 19 yanvar 1994-cü il tarixli Qərarı.

[11] AR Prezidentinin "*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun təsdiq edilməsi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Əsasnaməsinə əlavələr edilməsi haqqında*" 510 nömrəli 19 iyun 2001-ci il tarixli Fərmanı.

## 2.2. Gömrük qanunvericiliyi

Fəaliyyət göstərə bilən gömrük təşkilatını yaradandan sonra, Azərbaycan bu təşkilatın düzgün fəaliyyətini qurmaq məqsədilə müvafiq hüquqi bazanı işləyib hazırlamağa başladı. İlk əvvəl 4 sentyabr 1992-ci il tarixdə Prezidentin "*Azərbaycan Respublikasında gömrük nəzarətinin təmin edilməsi tədbirləri haqqında*" 167 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının gömrük sərhədini və gömrük ərazisini müəyyən etdi. Fərmanda həmçinin bəyan edildi ki, Azərbaycan Respublikasının gömrük sərhədindən yüklərin (mallar və digər əşyaların) keçirilməsi yeni qanunlar qəbul edilənə qədər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, keçmiş SSRİ-nin gömrük məsələlərinə dair qanunvericiliyinin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan müddəalarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikasıtda keçmiş SSRİ qanunvericiliyini, yəni 26 mart 1991-ci il tarixli SSRİ gömrük məcəlləsinin və SSRİ "*Gömrük tarifi haqqında*" Qanunun bir neçə il ərzində tətbiq edilməsi davam etdirilirdi.[12] Yalnız "*Gömrük tarifi haqqında*" 1064 nömrəli, 20 iyun 1995-ci il tarixli və "*Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında*" 311-IQ nömrəli, 10 iyun 1997-ci il tarixli Qanunların qəbul edilməsindən sonra keçmiş Sovet qanunların tətbiq edilməsi dayandırıldı.

6 avqust 1997-ci il tarixdə, yəni dərc edildiyi gündən, qüvvəyə minən 10 iyun 1997-ci il tarixli Gömrük Məcəlləsi aşağıdakı məsələləri əhatə etmişdir: gömrük prosedurları, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti, gömrük rüsumları və yığımları, valyuta nəzarəti, gömrük rejimləri, gömrük güzəştləri, gömrük statistikası, gömrük işi sahəsində cinayətlər, gömrük orqanlarının təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyəti, gömrük orqanlarının vəzifəli şəxslərinin statusu, gömrük orqanlarının qərarlarına şikayət etmək qaydası, mallar və nəqliyyat vasitələri üzərində sərəncam verilməsi və əldə edilən vəsaitlərdən is-

---

[12] AR-nın "*Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında*" 359 nömrəli, 28 oktyabr 1992-ci il tarixli Qanunu.

tifadə edilməsi, və məlumatlandırma və məsləhət vermə. 1991-ci il tarixli Gömrük Məcəlləsi ilə müqayisədə 1997-ci ilin Gömrük Məcəlləsi daha ətraflı və bazar iqtisadiyyatına daha uyğunlaşdırılmış bir sənəd idi. Sovet gömrük qanunvericiliyində gömrük işi sahəsində cinayətlər haqqında müddəalara böyük yer ayrılmışdır. Məsələn, 1991-ci ilin məcəlləsində bu mövzuya məcəllənin üçdə bir hissəsi həsr olunmuşdur. 1997-ci ilin məcəlləsindən isə bu müddəalar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin və İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsindən sonra çıxarılmışdı.[13]

1991-ci və 1997-ci ilin məcəllələri arasında ən böyük fərq gömrük rejimləri sahəsində mövcuddur. Hal-hazırda Gömrük Məcəlləsi aşağıdakı gömrük rejimlərini nəzərdə tutur: sərbəst dövriyyə üçün buraxılış, təkrar idxal, tranzit, gömrük anbarı, rüsumsuz ticarət mağazası, gömrük ərazisində emal, gömrük nəzarəti altında emal; müvəqqəti idxal (ixrac), sərbəst gömrük zonası, sərbəst anbar, gömrük ərazisindən kənarda emal, ixrac, təkrar ixrac, məhv etmə, və dövlətin xeyrinə maldan imtina.[14] Bununla əlaqədar qeyd etmək lazımdır ki, 1991 ilin Gömrük Məcəlləsi yalnız idxal, ixrac və tranzit gömrük rejimlərini nəzərdə tuturdu.

---

[13] AR-nın "*Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə*" 183-IIQ nömrəli, 5 oktyabr 2001-ci il tarixli Qanunu; AR-nın "*Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişikliklər və əlavələr edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi haqqında*" 568-IIQ nömrəli, 30 dekabr 2003-cü il tarixli Qanunu.

[14] Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Gömrük Məcəlləsinin 25-ci maddəsi.

Gömrük rejimlərini tətbiq etmək məqsədilə Gömrük Komitəsi bir sıra qaydaları qəbul etmişdir,[15] lakin hal-hazırda Gömrük Məcəlləsində nəzərdə tutulan bütün gömrük rejimlərini dəqiqləşdirən qaydalar hazırlanmamışdır. Gömrük nəzarəti altında emal, sərbəst gömrük zonası, sərbəst anbar və gömrük ərazisindən kənarda emal rejimləri üçün tətbiqedici qanunvericilik mövcud deyildir.

Hazırda yeni Gömrük Məcəlləsinin qəbul olunması istiqamətində işlər gedir.

---

[15] Hazırda aşağıdakı qaydalar mövcuddur: 24 iyul 1998-ci il tarixli, 34 nömrəli Əmrlə təsdiqlənmiş "Az*ərbaycan Respublikasının Gömrük ərazisinə bilavasitə təkrar ixrac üçün gətirilmiş və bu ərazidən aparılan malların gömrük rəsmiləşdirilməsi*" Qaydaları; 11 noyabr 1998-ci il tarixli, 64 nömrəli Əmrlə təsdiqlənmiş "*Gömrük anbarları haqqında*" Əsasnamə; 11 noyabr 1998-ci il tarixli, 66 nömrəli Əmrlə təsdiqlənmiş "*Müvəqqəti saxlanc (müvəqqəti saxlanc anbarları) haqqında*" Əsasnamə; 10 fevral 1999-cu il tarixli, 8 nömrəli Əmrlə təsdiqlənmiş "*Malların təkrar idxalı gömrük rejimi haqqında*" Əsasnamə; 17 fevral 1999-cu il tarixli, 13 nömrəli Əmrlə təsdiqlənmiş "*Dövlətin xeyrinə maldan imtina haqqında*" Əsasnamə; 17 fevral 1999-cu il tarixli, 13 nömrəli Əmrlə təsdiqlənmiş "*Malların məhv edilməsi gömrük rejimi haqqında*" Əsasnamə; 29 aprel 1999-cu il tarixli, 31 nömrəli Əmrlə təsdiqlənmiş "*Tranzit gömrük rejimi haqqında*" Əsasnamə *(qüvvədən düşmüş)*; 2 iyun 1999-cu il tarixli, 37 nömrəli Əmrlə təsdiqlənmiş "*Təkrar ixrac gömrük rejimi altında yerləşdirilmiş mallara yük gömrük bəyannaməsinin doldurulması*", "*Təkrar idxal gömrük rejimi altında yerləşdirilmiş mallara yük gömrük bəyannaməsinin doldurulması*" və "*Rüsumsuz ticarət mağazası gömrük rejimi altında yerləşdirilmiş mallara yük gömrük bəyannaməsinin doldurulması*" Qaydaları; 15 iyul 1999-cu il tarixli, 46 nömrəli Əmrlə təsdiqlənmiş "*Mallar tranzit gömrük rejimi altında yerləşdirilərkən yük-gömrük bəyannaməsinin doldurulmasının müvəqqəti*" Qaydası; 30 iyul 1999-cu il tarixli, 14/001 nömrəli Əmrlə təsdiqlənmiş "*Azərbaycan Respublikasına müvəqqəti idxal edilən malların gömrük rüsumları və vergilərin ödənilməsindən tamamilə və ya qismən azad edilməsinin bir sıra Məsələləri ilə bağlı*" Göstəriş; 29 sentyabr 2000-ci il tarixli, 64 nömrəli Əmrlə təsdiqlənmiş "*Müvəqqəti idxal (ixrac) gömrük rejimi haqqında*" Əsasnamə; 12 aprel 2001-ci il tarixli, 25 nömrəli Əmrlə təsdiqlənmiş "*Gömrük ərazisində malların emalı gömrük rejimi haqqında*" Əsasnamə; 23 noyabr 2001-ci il tarixli, 105 nömrəli Əmrlə təsdiqlənmiş "*Azərbaycan Respublikası gömrük orqanları tərəfindən gömrük anbarlarının təsis olunması və bu cür anbarlardan istifadə edilməsi*" Qaydaları; 6 noyabr 2002-ci il tarixli, 78 nömrəli Əmrlə təsdiqlənmiş *"Azərbaycan Respublikasının gömrük ərazisinə bilavasitə təkrar ixrac üçün gətirilmiş və bu ərazidən aparılan malların gömrük rəsmiləşdirilməsi Qaydaları*"nda dəyişikliklər; 12 may 2004-cü il tarixli, 38 nömrəli Əmrlə təsdiqlənmiş "*Tranzit gömrük rejimi haqqında*" Qaydalar".

## 2.2.1. Gömrük qiymətləndirilməsi

Gömrük işinin aparılmasında vacib məqamlardan biri ölkəyə idxal olunan malların gömrük dəyərini müəyyən etməkdən ibarətdir. Müvafiq qiymətləndirmə üsullarının işlənilməsi bütün dünyada böyük diqqət cəlb etmişdir. Ümumdünya Ticarət Təşkilatı çərçivəsində bu məsələ Uruqvay Raundu Sazişlərinə daxil olan böyük və mürəkkəb ayrıca sazişlə tənzimlənir.[16]

Azərbaycanda 20 iyun 1995-ci il tarixinə kimi güvvədə olan 26 mart 1991-ci il tarixli "*Gömrük tarifi haqqında*" keçmiş SSRİ Qanunu gömrük qiymətləndirilməsi üçün əsas kimi idxal olunan malların hesab-fakturada göstərilən qiymətini nəzərdə tuturdu. Deמək olar ki, bu sövdələşmə qiyməti idi. Bununla belə, bu qanunda ətraflı qiymətləndirmə üsulları göstərilməmişdir. 20 iyun 1995-ci il tarixli "*Gömrük tarifi haqqında*" Qanunun IV-cü fəsli də sövdələşmə qiymətindən əsas qiymətləndirmə üsulu kimi istifadə edir. Bundan başqa, bu qanun həmçinin sövdələşmə qiyməti təyin edilə bilinmədikdə, alternativ üsulları da göstərir. Ümumilikdə bu alternativ üsullar 1994 Tariflər və Ticarət Haqqında Baş Sazişin VII–ci Maddəsinin Tətbiqi Haqqında ÜTT Sazişdə göstərilən üsullara bənzəyirlər. Lakin, onlar ÜTT tələblərinə tam şəkildə uyğunlaşdırılmamışdır. Azərbaycan ÜTT-nin üzvü olduğu təqdirdə, qiymətləndirmə üsullarını ÜTT tələbləri ilə tam uyğunlaşdırmaq üçün qanunvericilikdə bəzi dəyişikliklərin edilməsi tələb olunacaq.

AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları haqqında*" 7 nömrəli 12 yanvar 1998-ci il tarixli Qərarı "*Gömrük tarifi haqqında*" Qanunun müddəalarını təkrarlayaraq daha ətraflı müddəalardan ibarətdir. Təkrarlamanın aydın səbəbi olmasa da, hər halda qanun və qarar müddəaları arasında ziddiyyət yoxdur. 17 dekabr 2003-cü ildə Azərbaycan Respublikası ərazi-

---

[16] 1994 Tariflər və Ticarət Haqqında Baş Sazişin VII–ci Maddəsinin Tətbiqi Haqqında ÜTT Sazişi.

sindən ixrac olunan mallar üçün gömrük qiymətləndirilməsi üsullarını əlavə etmək üçün Qərara dəyişikliklər edilmişdir.[17]

### 2.2.2. Malın mənşə ölkəsinin müəyyən edilməsi qaydaları

Malın mənşə ölkəsinin müəyyən edilməsi ticarət siyasətinin tətbiqi nöqteyi-nəzərdən çox mühüm bir məsələdir. Məsələn, hər hansı bir ölkə ilə sərbəst ticarət sazişi olduqda, bu sazişdən irəli gələn güzəştlər mənşəyi yalnız saziş iştirakçısı olan ölkədə olan mallara tətbiq olunur. Qloballaşan dünyada isə bir malın istehsalında bir neçə ölkələrin istehsalçıları iştirak edə bilərlər, buna görə bu malın mənşə ölkəsinin müəyyən edilməsi çətin işə çevrilir. Malın mənşə ölkəsinin müəyyən edilməsi üçün beynəlxalq səviyyədə qəbul olunan qaydaların işlənib hazırlanması istiqamətində ekspertlərin böyük səylərinə baxmayaraq, bu günə qədər qənaətbəxş nəticəyə gəlmək mümkün olmayıb. Hazırda ÜTT üzvləri üçün qaydaların əsasları Uruqvay Raundu Sazişləri çərçivəsində razılaşdırılmişdir.[18]

Əvvəllər Azərbaycan Respublikasında 26 may 1991-ci il tarixli "*Gömrük tarifi haqqında*" keçmiş SSRİ Qanununda göstərilən malın mənşə ölkəsi qaydaları tətbiq olunurdu. Bu qanunun 16-cı maddəsi emal və təkrar emal olunan mallar daxil olmaqla, malın mənşə ölkəsini müəyyən etmək üçün başlıca qaydaları müəyyən edirdi. Hazırda, malın mənşə ölkəsi 20 iyun 1995-ci il tarixli "*Gömrük tarifi haqqında*" Qanunun 5-ci fəsli və Nazirlər Kabinetinin 2 noyabr 2000-ci il tarixli Qərarı ilə təsdiqlənmiş Malın mənşə ölkəsinin təyin edilməsi Qaydası ilə tənzimlənir.[19] 202 nömrəli Qərar "*Sərbəst ticarət haqqında*" Azərbaycan Respublikası ilə bir sıra ölkələr arasında imzalanmış sazişlərin qüvvəyə minməsi ilə

---

[17] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 12 yanvar tarixli, 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları"na əlavələr və dəyişikliklər edilməsi haqqında*" 159 nömrəli 17 dekabr 2003-cü il tarixli Qərarı.

[18] Mənşə Ölkəsinin Müəyyən Edilməsi Qaydaları Haqqında ÜTT Sazişi.

[19] AR Nazirlər Kabinetinin "*Malın mənşə ölkəsinin təyin edilməsi Qaydasının təsdiq edilməsi haqqında*" 202 nömrəli, 2 noyabr 2000-ci il tarixli Qərarı.

əlaqədar[20] "*Gömrük Tarifi haqqında*" Qanunun və Müstəqil Dövlətlər Birliyi Hökumətləri Başçıları Şurasının 1993-cü il 24 sentyabr və 1996-cı il 18 oktyabr tarixli qərarları ilə təsdiq edilmiş "*Malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydasının*" müddəalarına uyğun olaraq hazırlanmışdır. Öz növbəsində bu Qaydalar MDB ölkələri arasında 1994-cü il aprelin 15-də Moskva şəhərində imzalanmış "*Sərbəst ticarət zonasının yaradılması haqqında*" Sazişə uyğun olaraq hazırlanmışdır. MDB ölkələri sərbəst ticarət rejimindən istisnalar barədə razılığa gələ bilmədiklərinə görə MDB sərbəst ticarət zonası qüvvəyə minməmişdir. Əsas səbəb Rusiyanın bu Sazişi ratifikasiya etməməsi və digər kömək sazişlərin bütün MDB ölkələri tərəfindən imzalanmaması idi. Buna baxmayaraq MDB ölkələri arasında sərbəst ticarət haqqında bir sıra ikitərəfli sazişlər imzalanıb və MDB çərçivəsində qəbul olunmuş "*Malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları*" onlara tətbiq edilir. 30 noyabr 2000-ci il tarixdə MDB-nin "*Malın mənşə ölkəsinin müəyyən edilməsi Qaydaları*" yeni qaydalarla əvəzlənmişdir. Azərbaycan bu yeni qaydaları digər MDB ölkələri münasibətdə tətbiq edir. Digər ölkələr münasibətdə isə yuxarıda göstərilən 2 noyabr 2000-ci il tarixli Qərar tətbiq edilir.

Bu sahədə Mənşə Ölkəsinin Müəyyən Edilməsi Qaydaları Haqqında ÜTT Sazişinin tələblərini yerinə yetirmək və beynəlxalq harmonizasiyaya nail olmaq məqsədilə bəzi dəyişikliklər edilə bilər. Malların mənşə ölkəsi barədə ilkin qiymətləndirməsi, inzibati qərarların yenidən baxılması və malın mənşə ölkəsinin təyin edilməsi zamanı təqdim edilən məlumatın məxfiliyi kimi məsələlərə xüsusi diqqət yetirilməlidir.

### 2.2.3. Gömrük rüsumları və yığımları

"*Gömrük tarifi haqqında*" Qanun üç növ gömrük rüsumunu nəzərdə tutur: advalor, spesifik və kombinə edilmiş gömrük rüsumu.[21] Həmin qanunun 3-cü maddəsinə uyğun olaraq, idxal və ixrac gömrük

---

[20] Rusiya Federasiyası, Moldova, Gürcüstan, Özbəkistan və Qazaxıstan.

[21] AR-nın "*Gömrük tarifi haqqında*" 1064 nömrəli 20 iyun 1995-ci il tarixli Qanunun 4-cü maddəsi.

rüsumları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən, Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün idxal gömrük rüsumları dərəcələrinin son həddi isə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən olunur. Qanunda "əlverişli ticarət rejimi" anlayışı açıqlanmamışdır, lakin kontekstdən elə nəticəyə gəlmək olar ki, bu ifadə ümumi gömrük rüsumlarla müqayisədə daha aşağı gömrük rüsumlarını nəzərdə tutan sərbəst ticarət, gömrük ittifaqı və buna oxşar rejimləri bildirir.

AR-nın "*Gömrük tarifi haqqında*" Qanunu həmçinin mövsümi və xüsusi növ rüsumları da nəzərdə tutur. Mövsümi rüsumlar malların ixracını və idxalını operativ tənzimləmək üçün bəzi mallara tətbiq oluna bilər. Onların qüvvədə olduğu müddət ildə altı aydan çox ola bilməz. Xüsusi növ rüsumlara gəldikdə isə, onlar ölkənin iqtisadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq aşağıdakı kimi tətbiq oluna bilər. Qanunvericilikdə üç növ xüsusi rüsum nəzərdə tutulub: xüsusi rüsumlar, antidempinq rüsumları, kompensasiya rüsumları. Xüsusi rüsumlardan müdafiə tədbiri kimi və ya cavab tədbir kimi istifadə edilə bilər.[22] Antidempinq rüsumları idxal olunan malların qiyməti Azərbaycan Respublikası gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında onların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.[23] Kompensasiya rüsumları Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.[24]

---

[22] AR-nın "*Gömrük tarifi haqqında*" 1064 nömrəli 20 iyun 1995-ci il tarixli Qanunun 7-ci maddəsi.
[23] AR-nın "*Gömrük tarifi haqqında*" 1064 nömrəli 20 iyun 1995-ci il tarixli Qanunun 8-ci maddəsi.
[24] AR-nın "*Gömrük tarifi haqqında*" 1064 nömrəli 20 iyun 1995-ci il tarixli Qanunun 9-cu maddəsi.

"*Gömrük tarifi haqqında*" Qanuna uyğun olaraq, xüsusi növ rüsumların tətbiqindən əvvəl on gün ərzində tədqiqat aparılır. Təhqiqat zamanı çıxarılan qərarlar kəmiyyətcə müəyyən edilmiş məlumatlara əsaslanmalıdır. Hər bir xüsusi hal üçün aparılan təhqiqatın nəticələrinə görə rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir və onların dərəcələri təhqiqatın müəyyən etdiyi qiymətlərin dempinq azaldılmasının, subsidiyanın və aşkar edilmiş ziyanın məbləğinə mütənasib olmalıdır.[25]

### 2.2.4. Gömrük nəzarətinin aparılması sahəsində qanunvericilik

Gömrük nəzarəti sahəsində Gömrük Məcəlləsinin V-ci bölməsinə (Gömrük Nəzarəti) müvafiq olaraq Dövlət Gömrük Komitəsi tərəfindən bir sıra qaydalar qəbul olunmuşdur.[26] Bundan əlavə gömrük nəzarəti ilə

---

[25] AR-nın "*Gömrük tarifi haqqında*" 1064 nömrəli 20 iyun 1995-ci il tarixli Qanunun 10-cu maddəsi.

[26] AR Dövlət Gömrük Komitəsinin 2 aprel 1999-cu il tarixli 22 nömrəli Əmri ilə təsdiqlənmiş "*Gömrük nəzarəti zonalarının yaradılması və onların nişanlanması*" Qaydaları; 23 may 2001-ci il tarixli, 43 nömrəli Əmri ilə təsdiqlənmiş "*Azərbaycan Respublikasının beynəlxalq uçuşlar üçün açıq olan hava limanlarında gömrük nəzarətinin həyata keçirilməsi*" Qaydaları; 18 iyun 2002-ci il tarixli, 44 nömrəli Əmri ilə təsdiqlənmiş "*Ticarət gəmiçiliyində istifadə olunan gəmilər, digər üzən nəqliyyat vasitələri və həmin nəqliyyat vasitələri ilə daşınan mallar üzərində gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi*" Qaydaları; 25 iyul 2002-ci il tarixli, 54 nömrəli Əmri ilə təsdiqlənmiş "*Azərbaycan Respublikasının gömrük sərhədindən keçən hava nəqliyyatı vasitələri, bu nəqliyyat vasitələri ilə daşınan malların gömrük rəsmiləşdirilməsi və onların gömrük nəzarətindən keçirilməsi*" Qaydaları; 6 sentyabr 2002-ci il tarixli, 62 nömrəli Əmri ilə təsdiqlənmiş "*Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və onlar üzərində gömrük nəzarətinin həyata keçirilməsinin nümunəvi*" Qaydaları; 4 dekabr 2003-cü il tarixli, 111 nömrəli Əmri ilə təsdiqlənmiş "*Mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti zamanı gömrük yoxlamasının keçirilməsi*" Qaydaları; 15 aprel 2004-cü il tarixli, 28 nömrəli Əmri ilə təsdiqlənmiş "*Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən beynəlxalq poçt göndərişlərinə gömrük nəzarəti və onların gömrük rəsmiləşdirilməsi*" Qaydaları; 27 iyul 2005-ci il tarixli, 70 nömrəli Əmri ilə təsdiqlənmiş "*Azərbaycan Respublikası gömrük sərhədindən keçirilən yüklü nəqliyyat vasitələrinin gömrük nəzarəti məqsədi ilə yoxlama tərəzilərində çəkilməsi*" Qaydaları.

sıx bağlılığı olan mallardan prob və nümunələrin götürülməsi və ekspertizanın keçirilməsi məsələləri də Gömrük Komitəsinin normativ aktları ilə tənzimlənir.[27] Gömrük nəzarəti keçirildikdə, fiziki şəxslər tərəfindən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların keçirilməsi üçün bəzi güzəştlər mövcuddur.[28]

### 2.2.5. Əqli mülkiyyətin qorunması

Gömrük nəzarəti əqli mülkiyyətin qorunmasında əhəmiyyətli yer tutur. Əqli mülkiyyət hüquqların pozulması ilə istehsal olunan malların ölkəyə gətirilməsinin qarşısı məhz gömrük tərəfindən alına bilər. Lakin Gömrük Məcəlləsi 1997-ci ildə qəbul olunanda əqli mülkiyyətin qorunması haqqında müddəalar nəzərdə tutulmamışdı. Buna görə də 2004-cü ildə Gömrük Məcəlləsinə əqli mülkiyyətin qorunması ilə bağlı

---

[27] AR Dövlət Gömrük Komitəsinin "*Komitənin Mərkəzi Laboratoriyası tərəfindən hazırlanmış normativ-metodiki sənədlərin təsdiqi haqqında*" 52 nömrəli 10 avqust tarixli əmri ilə təsdiqlənmiş "*Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallardan Azərbaycan Respublikası gömrük orqanları tərəfindən nümunə və ya prob götürülməsinin qaydaları haqqında*" Əsasnamə və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi laboratoriyalarında gömrük ekspertizalarının təşkili haqqında" Təlimat.

[28] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasının gömrük buraxılış məntəqələrindən fiziki şəxslər tərəfindən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların keçirilməsinin qaydaları haqqında*" 81 nömrəli, 21 iyul 1997-ci il tarixli Qərarı (qüvvədən düşüb); AR Nazirlər Kabinetinin "*Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydalarının təsdiq edilməsi barədə*" 105 nömrəli, 31 may 2001-ci il tarixli Qərarı. AR Dövlət Gömrük Komitəsinin "*Azərbaycan Respublikasının Gömrük buraxılış məntəqələrindən fiziki şəxslər tərəfindən istehsalat və ya kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan malların keçirilməsinin qaydaları haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 iyul 1997-ci il tarixli 81 saylı qərarı üzrə*" 12 fevral 1998-ci il tarixli Təlimatı (qüvvədən düşüb); AR Dövlət Gömrük Komitəsinin "*Fiziki şəxslər tərəfindən istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların Azərbaycan Respublikasının gömrük sərhədindən sadələşdirilmiş və güzəştli qaydada keçirilməsinə dair*" 28 avqust 2001-ci il tarixli Təlimatı.

dəyişiklik və əlavələrin edilməsi zərurəti yarandı.[29] Bundan başqa Gömrük Komitəsi tərəfindən tərkibində əqli mülkiyyət obyektləri olan malların keçirilməsi zamanı gömrük nəzarətin aparılması haqqında xüsusi qaydalar da qəbul olunmuşdur.[30] Bütün bu dəyişikliklərin nəticəsində tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti zamanı kontrafakt mallar olması əlamətləri aşkar olunarsa, belə malların buraxılışı gömrük orqanları tərəfindən dayandırıla bilər.

### 2.2.6. Mədəniyyət sərvətlərinin qorunması

Mədəniyyət sərvətləri xüsusi mədəni və tarixi əhəmiyyət kəsb etdikləri üçün onların gömrük sərhədindən keçirilməsi üçün də xüsusi qaydalar mövcuddur.[31] Bu sahədə ümumi siyasət mədəniyyət sərvətlərinin ixracını məhdudlaşdırması istiqamətində aparılır.

---

[29] AR-nın "*Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında*" 650 nömrəli 14 may 2004-cü il tarixli Qanun.

[30] 17 may 2003-cü il tarixli, 47 nömrəli Əmrlə təsdiqlənmiş "*Azərbaycan Respublikasının gömrük sərhədindən tərkibində intellektual mülkiyyət (əqli mülkiyyət) obyektləri olan malların keçirilməsi zamanı gömrük nəzarətinin aparılması*" Qaydaları (qüvvədən düşmüş); 3 avqust 2005-ci il tarixli, 74 nömrəli Əmrlə təsdiqlənmiş "*Azərbaycan Respublikasının gömrük sərhədindən tərkibində əqli mülkiyyət obyektləri olan malların keçirilməsi zamanı gömrük nəzarətinin aparılması*" Qaydaları.

[31] AR Dövlət Gömrük Komitəsinin 12 dekabr 2003-cü il tarixli, 118 nömrəli Əmrlə təsdiqlənmiş "*Mühafizə siyahısına daxil edilmiş mədəniyyət sərvətlərinin fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları*"

## BÖLMƏ 3. XARİCİ TİCARƏTDƏ İDXAL VƏ İXRAC MƏHDUDİYYƏTLƏRİ

### 3.1. İdxal məhdudiyyətləri

#### 3.1.1. Ümumi

İlk öncə qeyd olunmalıdır ki, müstəqillik əldə ediləndən sonra Azərbaycan Respublikasında idxal lisenziyalaşdırmasına dair heç bir qanunvericilik mövcud deyildi. Malların idxalı hər hansı bir qanunla və ya normativ hüquqi aktla tənzimlənmirdi.

12 dekabr 1992-ci il tarixli "*Sahibkarlıq fəaliyyəti haqqında*" Qanuna uyğun olaraq bəzi sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırmasını tələb edirdi. Qanun lisenziyaların alınması üçün ümumi qaydaları müəyyən etmişdir. Burada lisenziyalaşdırmaya məruz qalan fəaliyyətlərin siyahısı və ya lisenziyaların verilməsinə cavabdeh olan dövlət orqanlarının adları sadalanmırdı. Dörd il sonra, 6 fevral 1996-cı il tarixində AR Milli Məclisi "*Bəzi Qanunvericilik Aktların Əlavə və Dəyişikliklərin edilməsi haqqında*" Qanunu qəbul etməklə lisenziyalaşdırmanın tətbiq edildiyi fəaliyyətlərin siyahısını müəyyən etdi. Siyahıda idxal lisenziyalaşdırmasına (neft məhsulları ilə əlaqədar idxal və ixrac fəaliyyətləri istisna olmaqla) məruz qalan malları daxil etmirdi.[32]

---

[32] Bir il sonra AR Prezidentinin "*Bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında*" 543 nömrəli 27 yanvar 1997-ci il tarixli Fərmanı ilə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin və onları verən müvafiq icra hakimiyyəti orqanlarının siyahısının hazırlamasını Nazirlər Kabinetinə tapşırmışdır. Fərman, bəzi fəaliyyət növləri üçün tələb olunan xüsusi razılığın (lisenziyanın) verilməsi haqqında əsasnaməni qəbul etmişdir. Bu fərman AR-nın "*Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişiklər edilməsi barədə*" 24 dekabr 1996-cı il tarixli Qanunun tətbiqi məqsədi ilə qəbul edilmişdir və AR Prezidentin "*Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında*" 782 nömrəli 2 sentyabr 2002-ci il tarixli Fərmanı ilə qüvvədən düşmüşdür.

### 3.1.2. İdxal məhdudiyyətləri sahəsində qanunvericiliyin inkişafı

AR Nazirlər Kabineti 15 fevral 1994-cü ildə "*Azərbaycan Respublikası xarici ticarətin müvəqqəti qaydaları haqqında*" 62 nömrəli Qərarı qəbul etdi. Qərar Azərbaycan Respublikasında malların (iş və xidmətlərin) ixracı və idxalının kvotalaşdırılması və lisenziyalaşdırmasının müvəqqəti qaydalarını[33] daxil edirdi. Qərar idxalı Xarici İqtisadi Əlaqələr Nazirliyi tərəfindən verilən lisenziya əsasında keçirilən malların siyahısını daxil edirdi. Lisenziyaların Qərara 3 və 4 saylı Əlavələrdə sadalanan spesifik malların idxalı üçün müvafiq nazirliklilərin rəyləri əsasında və Nazirlər Kabinetinin icazəsi ilə verilməsi tələb olunurdu. Qərar Xarici İqtisadi Əlaqələr Nazirliyindən lisenziya alınması üçün yalnız ümumi qaydaları müəyyən etmişdir. Xüsusi razılıq üçün heç bir prosedurlar işlənib hazırlanmamışdır.[34]

---

[33] Müvəqqəti müddətin davamiyyəti müəyyən edilməmişdir.

[34] 62 nömrəli Qərar 2, 3 və 4 saylı Əlavələrdə sadalanan malların idxal və ixracı üçün lisenziyaları tələb edirdi. Qərar 2 və 3 saylı Əlavələrdə sadalanan malların idxal və ixracı üçün müvafiq nazirliklərin və idarələrin ekspert rəylərini tələb edirdi. 4 saylı Əlavədə sadalanan malların idxal və ixracı Nazirlər Kabinetinin icazəsi ilə lisenziyalaşdırma əsasında həyata keçirilirdi. 62 nömrəli Qərarı ləğv edən sonrakı 222 nömrəli Qərar müvafiq nazirliklərin və komitələrin razılığı və Nazirlər Kabinetinin icazəsi əsasında 3 və 4 saylı Əlavələrdə sadalanan malların idxal və ixracı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyata alınmasını tələb edirdi. 222 nömrəli Qərarı ləğv etmiş sonrakı 247 nömrəli Qərar ixrac lisenziyalaşdırmasını ləğv etdi. Qərar idxal və ixrac əməliyyatlarını həyata keçirmək üçün müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə həmçinin gömrük orqanlarına təqdim edilməsini və eləcədə 4 saylı Əlavədə sadalanan malların idxalı üçün Nazirlər Kabinetinin icazəsi və 5 saylı Əlavədə sadalanan malların idxalı üçün müvafiq dövlət orqanlarının razılığın alınmasını tələb edirdi. 247 nömrəli Qərarı ləğv etmiş sonrakı 481 nömrəli Qərar idxal və ixrac əməliyyatlarını həyata keçirmək üçün müqavilələrin qeydiyyata alınmasını artıq tələb etmişdir. Qərar 2 saylı Əlavədə sadalanan malların idxalı üçün Nazirlər Kabinetinin sərəncamı və həmçinin Xarici İqtisadi Əlaqələr Nazirliyindən 3 saylı Əlavədə sadalanan malların idxal və ixracı üçün müqavilələrin yoxlanılması zamanı müvafiq dövlət orqanlarının ekspert rəylərinin alınmasını tələb edirdi.

62 nömrəli Qərar AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında*" 222 nömrəli, 2 iyun 1994-ci il tarixli Qərarı ilə ləğv olunmuşdur. Bu Qərar idxal əməliyyatları üzrə ümumi qaydaları müəyyən etmişdir. Qərar idxalına müəyyən sənədlərin təqdim olunması tələb olunan malların siyahısı və müqavilələrin gömrük orqanlarında qeydiyyatdan keçirilməsini (hüquqi şəxslər üçün) və ya müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində (dövlət müəssisələri üçün) qeydiyyatdan keçirilməsi qaydalarını daxil etmişdir. Qərara 3 və 4 saylı Əlavələrdə sadalanan spesifik malların idxalı həmin sənəddə sadalanan müvafiq nazirliklərin və komitələrin xüsusi icazəsi, Nazirlər Kabinetinin icazəsi və müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyatdan keçirilməsi tələb olunurdu. Qərar nazirliklərdən icazə və ya Nazirlər Kabinetindən razılıq alınması üçün hər hansı qaydaları əks etdirmirdi.

222 nömrəli Qərar AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 247 nömrəli 15 noyabr 1995-ci il tarixli sonrakı Qərarı ilə ləğv edildi. Qərara 4 saylı Əlavədə idxalına Nazirlər Kabinetindən razılıq alınmasını tələb edən spesifik malların siyahısı daxil edilirdi. Qərarda həmçinin 5 saylı Əlavədə sadalanan müxtəlif malların idxalı üçün müvafiq dövlət orqanlarından razılıq alınması tələb edilirdi. Xüsusi razılığın və ya icazənin alınması üçün qaydalar müəyyən olunmamışdır.[35]

6 avqust 1996-cı il tarixli Prezidentin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında*" 481 nömrəli Fərmanı dövlət büdcəsindən və ya xarici kreditlərin gəlirlərdən maliyyələşən idxal əməliyyatlarının həyata keçirilməsi üçün müqavilələrin qeydiyyatdan keçirilməsini tələb edirdi. Bu cür əməliyyatların tenderlər vasitəsilə aparılması

---

[35] 247 nömrəli Qərar AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 125 nömrəli, 5 aprel 1994-cü il tarixli Fərmanına uyğun olaraq qəbul edilmişdir. Bu Qərar müəyyən malların idxalı üçün tələbləri müəyyən edən AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında*" 481 nömrəli, 6 avqust 1996-cı il tarixli Fərmanı qəbul edildəndən sonra Nazirlər Kabinetinin 151 nömrəli, 29 oktyabr 1996-cı il tarixli Qərarı ilə ləğv edilmişdir.

nəzərdə tutulurdu. Fərmana 2 saylı Əlavədə sadalanan spesifik malların idxalına Nazirlər Kabinetindən sərəncam alınmasını nəzərdə tuturdu. Bu fərmana 3 saylı Əlavə idxalı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyatdan keçirilməsi tələb olunan spesifik malların siyahısını daxil edirdi. Nazirlikdən bu cür malların idxalı ilə əlaqədar həmin sənəddə sadalanan müvafiq dövlət orqanlarından ekspert rəylərinin alınması tələb olunurdu. Fərmanda müqavilələrin qeydiyyatından imtinaya səbəb ola bilən əsaslar müəyyən olunmamışdır.

Yuxarıda bəhs edilən 481 nömrəli Fərman AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında*" 520 nömrəli 17 dekabr 1996-cı il tarixli Fərmanı ilə əvəzlənmişdir. Yeni fərman etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatının idxalı və ixracı üçün Xarici İqtisadi Əlaqələr Nazirliyindən lisenziya alınması üçün əlavə tələblər istisna olmaqla ləğv olunmuş fərman ilə eynidir.[36] Fərman lisenziyaların verilməsi üçün hər hansı qaydaları müəyyən etmirdi.

22 mart 1997-ci ildə Nazirlər Kabineti "*Azərbaycan Respublikası ərazisində bütün növ etil (yeyinti) spirtinin istehsalı, saxlanması, alkoqollu içkilərin və tütün məmulatının istehsalı, idxalı üçün lisenziya verilməsi, onların pərakəndə satışı idxal olunan və ölkədə istehsal edilən həmin məhsullara aksiz markalarının tətbiq olunması qaydaları haqqında*" 24 nömrəli Qərarı qəbul etdi.[37] Bu Qərar alkoqollu içkilərin və tütün məmulatlarının idxalına lisenziyaların verilməsi üçün ümumi tələbləri müəyyən etmişdir. Xarici İqtisadi Əlaqələr Nazirliyi lisenziyaların verilməsinə cavabdeh orqan edilmişdir. Qərarda müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə təqdim olunması tələb olunurdu. Qərarda lisenziyaların verilməsindən imtinaya əsaslar müəyyən olunmamışdır. 24

---

[36] Bu Fərmanın bir çox müddəaları AR Prezidentinin 609 nömrəli 24 iyun 1997-ci il tarixli Fərmanı ilə ləğv olunmuşdur.

[37] AR Prezidentinin "*Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, saxlanmasının, idxalının və satışının tənzimlənməsi haqqında*" 527 nömrəli, 20 dekabr 1996-cı il tarixli Fərmanı alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatının idxalı üçün lisenziya tələb edirdi. Xarici İqtisadi Əlaqələr Nazirliyi lisenziyaların verilməsinə cavabdeh olan orqan adlandırıldı.

nömrəli Qərar sonrakı Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası ərazisində etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatının satışı, aksizi markalarının hazırlanmasına dair sifariş verilməsi, satışı və uçotunun aparılması və gündəlik dövlət nəzarətinin aparılması qaydaları haqqında*" 33 nömrəli 4 mart 1999-cu il tarixli etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatlarının idxalına lisenziyaların verilməsi üçün yeni tələbləri müəyyən edən Qərarı ilə ləğv edilmişdir. Qərarda lisenziyanın alınması üçün müəyyən sənədlərin Ticarət Nazirliyinə təqdim olunması tələb olunurdu. Bu Qərar lisenziyanın verilməsindən imtinaya səbəb ola bilən əsasları sadalayırdı.[38]

10 oktyabr 1997-ci ildə Prezident "*Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında*" 637 nömrəli Fərmanı qəbul etdi. Bu Fərman alkoqollu içkilərin, etil (yeyinti spirtinin), tütün məmulatlarının və ozon dağıdıcı maddələrin idxalına lisenziyalar tələb edirdi. Bu fərman lisenziyanı verməyə cavabdeh olan dövlət orqanlarının siyahısını daxil edərək hər hansı prosedur qaydalarını nəzərdə tutmurdu. Bu fərman Prezidentin 782 nömrəli 2 sentyabr 2002-ci il tarixli Fərmanı ilə ləğv edilmişdir.

### 3.1.3. Hazırkı vəziyyət

Hal-hazırda, idxal Prezidentin 609 nömrəli 24 iyun 1997-ci il tarixli, 782 nömrəli və 2 sentyabr 2002-ci il tarixli Fərmanları, Nazirlər Kabinetinin 230 nömrəli 15 dekabr 2005-ci il tarixli Qərarı və müxtəlif malların idxalı üçün xüsusi icazə (lisenziya), müqavilələrin qeydiyyatdan keçirilməsini və ya Nazirlər Kabinetinin sərəncamı tələb edən bəzi digər normativ hüquqi aktlarla tənzimlənir. Bu normativ hüquqi aktlar aşağıda qısa şəkildə təsvir edilir.

---

[38] Qərarın bir çox müddəaları, xüsusən də lisenziyaların verilməsi qaydaları ilə bağlı qərarın müddəaları, sonrakı normativ hüquqi aktlarla ləğv edilmişdirlər.

**a) Nazirlər Kabinetinin icazəsi**

24 iyun 1997-ci ildə AR Prezidenti "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli Fərmanı qəbul etdi[39]. Fərman idxal-ixrac əməliyyatlarına dair tənzimləmə qaydalarını müəyyən edir. Fərman 1 saylı Əlavədə sadalanan müəyyən malların idxalı və ixracı üçün Nazirlər Kabinetinin sərəncamı tələb edir. Fərman Nazirlər Kabineti tərəfindən sərəncamın verilməsi qaydalarını müəyyən etmir. Nazirlər Kabinetinin sərəncamı silah və hərbi texnikanın, onların istehsalı üçün zəruri olan ehtiyat hissələrinin, barıt, partlayıcı maddələrin, partlayış və pirotexnika vasitələrinin, nüvə materiallarının, texnologiyaları, avadanlıqları və qurğuları, o cümlədən xüsusi qeyri-nüvə materiallarının, radioaktiv şüalanma mənbələrinin, radioaktiv tullantılar da daxil olmaqla, Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin və psixotrop maddələrin, habelə kimyəvi zəhərlərin, silahlanma və hərbi texnikanın yaradılması üçün istifadə olunan elmi-texniki məlumatların və texnologiyalarının, material və avadanlıqların ayrı-ayrı növlərinin, eləcə də qan, qan komponentlərinin və onlardan hazırlanan preparatların, idxalı üçün tələb olunur.

**b) Müqavilənin ekspertizadan və qeydiyyatdan keçirilməsi tələbləri**

609 nömrəli Fərmanın 8-ci Maddəyə uyğun olaraq, 2 saylı Əlavədə əks etdirilən mallar üçün bağlanan bütün idxal müqavilələri İqtisadi İnkişaf Nazirliyində ekspertizadan keçirməli və qeydiyyata alınmalıdır. İqtisadi İnkişaf Nazirliyindən idxal və ixrac olunan mallara dair Fərmana 2 saylı Əlavədə sadalanan müvafiq dövlət orqanlarından ekspert rəylərinin alınması tələb olunur. Ərizəçi idxal müqaviləsini qeydiyyatdan keçirmək üçün müəyyən sənədləri İqtisadi İnkişaf Nazirliyinə təqdim etməlidir. Fərmanda qeydiyyata alınmadan imtina edilə bilib-bilinməməsi müəyyən olunmamışdır.

---

[39] Bu Fərman AR Prezidentinin 520 nömrəli 17 dekabr 1996-cı il tarixli Fərmanı ilə ləğv olunmuşdur.

Fərman bitkilərin mühafizəsi üçün istifadə edilən kimyəvi vasitələrin, baytarlıq təbabətində tətbiq edilən baytarlıq dərmanların, bioloji preparatların və baytarlıq ləvazimatların, dərman preparatların, o cümlədən Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin və tibbi ləvazimatların idxalı üçün müqavilələrin ekspertizadan və qeydiyyatdan keçirilməsini tələb edir.

**c) Lisenziyalar**

AR Prezidentinin "*Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında*" 782 nömrəli, 2 sentyabr 2002-ci il tarixli[40] Fərmanına lisenziyalaşdırılmaya məruz qalan bütün fəaliyyət növlərinin siyahısı daxil edilir. Bu Fərmana əsasən etil (yeyinti) spirti, alkoqollu içkilər, tütün məmulatının və prekursorların[41] idxalı üçün lisenziya almaq tələb olunur. Fərmanda lisenziya almaq üçün qaydalar müəyyən olunur və cavabdeh dövlət orqanları sadalanır.

AR Nazirlər Kabinetinin "*Bəzi istehlak mallarının istehsalı və dövriyyəsi ilə əlaqədar dövlət tənzimlənməsinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli, 289 nömrəli Fərmanının icrası barədə"* 235 nömrəli, 21

---

[40] "*Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının paylanması haqqında*" 28 iyun 2005-ci il tarixli Qanunu prekursorların idxalı üçün xüsusi icazənin (lisenziya) alınmasını tələb edir. Qanunda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunmur. Qanunda nəzarət edilən məhsulların siyahısı müəyyən olunmur. Bu cür siyahı "*Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında*" 28 iyun 2005-ci il tarixli Qanunla müəyyən olunur. Prekursorların idxalı üçün qaydalar yuxarıda göstərilən Prezidentin 782 nömrəli Fərmanında göstərilir. Lakin bu Fərman yalnız prekursorların idxalı ilə bağlıdır.

[41] Qeyd olunmalıdır ki, tütün və tütün məmulatının idxalı həmişə lisenziyalaşdırma tələblərinə meylli olmasına və ya məruz qalmasına baxmayaraq, tütün və tütün məmulatının idxalına xüsusi icazəni tələb edən "*Tütün və tütün məmulatı haqqında*" Azərbaycan Respublikasının 138-IIQ nömrəli Qanunu yalnız 8 iyun 2001-ci il tarixində qəbul edilmişdir.

dekabr 2005-ci il tarixli Qərarı alkoqollu içkilər, etil (yeyinti) spirti, tütün məmulatının idxalı üçün əlavə şərtləri müəyyən edir.[42]

**ç) İxrac nəzarəti qanunvericiliyinə əsasən idxal əməliyyatları**

26 oktyabr 2004-cü il tarixində AR-nın "*İxrac Nəzarəti haqqında*" AR Qanunu[43] qəbul olundu. Bu Qanun həm hərbi həm də mülki məqsədlər üçün istifadə edilə bilən ikili təyinatlı mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə ixrac nəzarətini həyata keçirmək üçün əsasları müəyyən edir. Adına baxmayaraq Qanun həmçinin həmin sənəddə sadalanan malların idxalına və tranzitinə tətbiq olunur. Qanun bu cür malların ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün müvafiq dövlət orqanlarından xüsusi icazənin alınmasını tələb edir. Bu mallar kütləvi qırğın silahları və onların çatdırılma (daşınma) vasitələri daxil olmaqla, hərbi təyinatlı malları; kütləvi qırğın silahlarının, silahların, hərbi texnikanın və sursatların yaradılmasında və hazırlanmasında istifadə oluna bilən ikili təyinatlı malları (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələrini); partlayıcı və radioaktiv maddələr, materiallar, radioaktiv mənbəli cihazları, ionlaşdırıcı şüa mənbələri, qurğuları; müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi, o cümlədən son istifadəsinə və ya istifadəçisinə görə ixrac nəzarətinə düşən digər malları (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələrini) əhatə edir. Bu cür malların müvafiq HS nömrələri ilə dəqiq siyahısı və xüsusi icazənin verilməsi qaydası Nazirlər Kabinetinin 15 dekabr 2005-ci il tarixli Qərarında göstərilir.

Azərbaycan Respublikası Nazirlər Kabineti 15 dekabr 2005-ci il tarixində "*İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanunun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə*" 230 nömrəli Qərarı qəbul etdi. Qərarda həm hərbi həm də mülki məqsədlər üçün isti-

---

[42] Qərar alkoqollu içkilər, etil (yeyinti) spirti, tütün məmulatının idxalı üçün lisenziyada göstərilən idxalın həcminin yerinə yetirilməsini tələb edir. İdxalın həcmi Qərarda müəyyən olunmur və onun mənası aydın deyil.

[43] AR Prezidentinin "*İxrac nəzarəti haqqında*" *Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə*" 167 nömrəli, 29 dekabr 2004-cü il tarixli Fərmanı ixrac nəzarətinə düşən mal və xidmətlərin siyahısının hazırlanmasını və xüsusi icazənin verilməsi qaydalarının müəyyən etdirilməsini Nazirlər Kabinetinə tapşırır.

fadə oluna bilən ikili təyinatlı malların idxalı üçün xüsusi icazənin alınması tələb olunur. Qərar xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının siyahısını təsdiq edir. Qərarda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunur və xüsusi icazənin verilməsindən imtinaya səbəb ola bilən əsaslar sadalanır. Qərarda həmçinin xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması qaydaları müəyyən olunur.

### 3.2. İxrac məhdudiyyətləri

#### 3.2.1. Ümumi

AR Prezidentinin "*Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında*" 136 nömrəli, 13 avqust 1992-ci il tarixli sonrakı Fərmanı Xarici İqtisadi Əlaqələr Nazirliyinə bütün ixrac əməliyyatlarını tənzimləmək səlahiyyəti verdi. Fərman Nazirlər Kabinetindən ixracı məhdudiyyətlərə məruz qalan malların siyahısını hazırlamağı tələb edirdi.[44]

#### 3.2.2. İxrac məhdudiyyətləri sahəsində qanunvericiliyin inkişafı

Yuxarıda göstərilən 136 nömrəli Fərmanı tətbiq etmək üçün Nazirlər Kabineti "*Strateji əhəmiyyətli malların ixracının lisenziyalaşdırılması haqqında*" 515 nömrəli, 2 sentyabr 1992-ci il tarixli Qərarı qəbul etdi. Qərar ixracı məhdudlaşdırılmış malların siyahısını və ixrac əməliyyatlarının həyata keçirilməsi ilə bağlı ümumi qaydaları müəyyən edirdi. Xarici İqtisadi Əlaqələr Nazirliyinə həmin sənəddə sadalanan malların

---

[44] AR Prezidentinin "*Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiq edilməsi haqqında* " 118 nömrəli, 10 sentyabr 1992-ci il tarixli Sərəncamı.

ixracı üçün lisenziya vermək səlahiyyəti verilmişdir. Qərar lisenziyaların verilməsi üçün yalnız ümumi qaydaları müəyyən etmişdir.[45]

15 fevral 1994-cü ildə Nazirlər Kabineti "*Azərbaycan Respublikası xarici ticarətin müvəqqəti qaydaları haqqında*" 62 nömrəli qərar qəbul etdi.[46] Qərar Azərbaycan Respublikasında malların (iş və xidmətlərin) ixracı və idxalın kvotalaşdırılması və lisenziyalaşdırmasının müvəqqəti qaydaları daxil edirdi.[47] Qərar ixracına Xarici İqtisadi Əlaqələr Nazirliyindən lisenziya alınmasını tələb edən malların siyahısını daxil edirdi. 2 və 4 saylı Əlavələrdə sadalanan spesifik malların ixracı müvafiq nazirliklərinin rəylərini və Nazirlər Kabinetinin icazəsini tələb edirdi. Qərar yalnız lisenziyaların alınması üçün ümumi qaydaları müəyyən edibdir. Xüsusi razılıq üçün heç bir qayda işlənib hazırlanmamışdır.

2 iyun 1994-cü ildə Nazirlər Kabineti "*Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında*" 222 nömrəli Qərarı qəbul etdi. Bu Qərar ixrac əməliyyatlarının aparılması üçün ümumi qaydaları müəyyən etmişdir. Xarici İqtisadi Əlaqələr Nazirliyi ekspert rəyləri əsasında lisenziyaların verilməsinə cavabdeh orqan adlandırıldı. Qərar ixracına müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə, həmçinin gömrük orqanlarına təqdim olunmasını tələb edən malların siyahısını, 3 saylı Əlavədə sadalanan spesifik malların ixracı üçün müvafiq nazirlik və komitələrin xüsusi razılığını və 4 saylı Əlavədə sadalanan malların ixracı üçün Nazirlər Kabinetinin icazəsini daxil edirdi. Qərar nazirliklərdən icazə və Nazirlər Kabinetindən razılıq alınmasına dair hər hansı qaydaları daxil etmirdi.

222 nömrəli Nazirlər Kabinetinin Qərar "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 247 nömrəli 15 noyabr

---

[45] Bu Qərar AR Nazirlər Kabinetin 222 nömrəli, 2 iyun 1994-cü il tarixli Fərmanı ilə ləğv olunmuşdur.

[46] AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında*" 91 nömrəli, 10 yanvar 1994-cü il tarixli Fərmanı malların siyahısını müəyyən etmişdir. 62 nömrəli Qərar AR Nazirlər Kabinetinin 222 nömrəli, 2 iyun 1994-cü il tarixli Qərarı ilə ləğv olunmuşdur.

[47] Müvəqqəti müddətlər müəyyən edilməmişdi.

1995-ci il tarixli Qərarı ilə ləğv olunmuşdur. Qərar əvvəlki normativ hüquqi aktlarda müəyyən olunmuş ixracın lisenziyalaşdırmasını və kvotaların tətbiqini ləğv etmişdir. Qərar ixrac əməliyyatlarının həyata keçirilməsi üçün müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə, həmçinin gömrük orqanlarına təqdim edilməsini tələb edirdi. Qərar həmçinin Qərara 4 və 5 saylı Əlavələrdə sadalanan malların ixracı üçün Nazirlər Kabinetindən xüsusi razılıq və ya müvafiq dövlət orqanlarından xüsusi razılıq alınmasını tələb edirdi. Bu Qərarda xüsusi razılıq və ya xüsusi icazənin alınması qaydaları müəyyən olunmamışdır.[48]

6 avqust 1996-cı ildə AR Prezidenti "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında*" 481 nömrəli Fərmanı qəbul etdi. Fərman 1 saylı Əlavədə sadalanan malların ixracı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyata alınmasını tələb edirdi. Fərmanda müəyyən sənədlərin Xarici İqtisadi Əlaqələr Nazirliyinə, həmçinin gömrük orqanlarına təqdim edilməsi tələb olunurdu. Fərmana 2 saylı Əlavədə sadalanan malların ixracı Nazirlər Kabinetinin sərəncamı tələb edirdi. Bu fərmana 3 saylı Əlavə ixracı üçün müqavilələrin Xarici İqtisadi Əlaqələr Nazirliyində qeydiyyata alınması tələb olunan spesifik malların (xidmətlərin və əqli mülkiyyətin) siyahısını daxil edirdi. Xarici İqtisadi Əlaqələr Nazirliyindən Fərmana 3 saylı Əlavədə sadalanan malların ixracı ilə bağlı müvafiq dövlət orqanlarından ekspert rəylərinin alınması tələb olunurdu.

Yuxarıda bəhs edilən 481 nömrəli Fərman AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında*" 520 nömrəli 17 dekabr 1996-cı il tarixli Fərmanı ilə ləğv olunmuşdur. Yeni fərman etil (yeyinti) spirtinin, alkoqollu içkilərin və tütün məmulatının idxalı və ixracı üçün Xarici İqtisadi Əlaqələr Nazirliyindən lisenziya alınması üçün əlavə tələb istisna olmaqla ləğv

[48] Bu Qərar AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında*" 481 nömrəli, 6 avqust 1996-cı il tarixli Fərmanı qəbul edildə AR Nazirlər Kabinetinin 151 nömrəli, 29 oktyabr 1996-cı il tarixli Qərarı ilə ləğv edilmişdir.

olunmuş fərman ilə mahiyyətcə eynidir.[49] Fərman lisenziyaların verilməsi üçün hər hansı qaydaları müəyyən etmirdi.

### 3.2.3. Hazırkı vəziyyət

Hal-hazırda, Azərbaycan Respublikasında ixrac əməliyyatları aşağıda təsvir olunan AR Prezidentinin 609 nömrəli, 24 iyun 1997-ci il tarixli Fərmanı, AR Prezidentinin 698 nömrəli, 16 aprel 1998-ci il tarixli Fərmanı, AR Prezidentinin 457 nömrəli, 17 aprel 2001-ci il tarixli, AR Prezidentinin 782 nömrəli, 2 sentyabr 2002-ci il tarixli Fərmanı, AR Nazirlər Kabinetinin 230 nömrəli, 15 dekabr 2005-ci il tarixli Qərarı, AR Prezidentinin 218 nömrəli, 1 aprel 2005-ci il tarixli Fərmanı, AR Nazirlər Kabinetinin 135 nömrəli, 13 iyul 2005-ci il tarixli Qərarı, və AR-nın "*Mədəniyyət haqqında*" 430-İQ nömrəli 6 fevral 1998-ci il tarixli və "*İxrac nəzarəti haqqında*" 24 oktyabr 2004-cü il tarixli Qanunlarla tənzimlənir. Müəyyən malların ixracı lisenziyanı, müqavilələrin qeydiyyatını, Nazirlər Kabinetinin sərəncamı və müvafiq dövlət orqanlarının (ikili təyinatlı malların ixracı üçün) xüsusi icazəsini tələb edir.

#### a) Nazirlər Kabinetinin sərəncamı

24 iyun 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli Fərmanı imzaladı.[50] Fərman rezidentlərə Azərbaycan Respublikasında istehsal, emal və təkrar emal olunan malları sərbəst şəkildə ixrac etmələrinə icazə verir və onların fəaliyyəti bu Fərmanda nəzərdə tutulan hallar istisna olmaqla məhdudlaşdırılmır.

Fərman 1 saylı Əlavədə sadalanan müəyyən malların idxal və ixracı üçün Nazirlər Kabinetinin sərəncamı tələb edir. Fərman sərəncamın verilməsi qaydalarını müəyyən etmir. Fərman silah və hərbi tex-

---

[49] Bu Fərmanın bir çox müddəaları AR Prezidentin 609 nömrəli 24 iyun 1997-ci il tarixli Fərmanı ilə ləğv edildi (aşağıdakılara bax).

[50] Bu Fərman AR Prezidentinin 520 nömrəli, 17 dekabr 1996-cı il tarixli Fərmanı ləğv etdi (yuxarıda göstərilənlərə bax).

nikanın, onların istehsalı üçün zəruri olan ehtiyat hissələrinin, barıt, partlayıcı maddələrin, partlayış və pirotexnika vasitələrinin, nüvə materiallarının, texnologiyaları, avadanlıqları və qurğuları, o cümlədən xüsusi qeyri-nüvə materiallarının, radioaktiv şüalanma mənbələrinin, radioaktiv tullantılar da daxil olmaqla, Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin və psixotrop maddələrin, habelə kimyəvi zəhərlərin, silahlanma və hərbi texnikanın yaradılması üçün istifadə olunan elmi-texniki məlumatların və texnologiyalarının, material və avadanlıqların ayrı-ayrı növlərinin, eləcə də qan, qan komponentlərinin və onlardan hazırlanan preparatların ixracı üçün Nazirlər Kabinetinin sərəncamını tələb edir.

**b) Müqavilənin ekspertizadan və qeydiyyatdan keçirilməsi tələbləri**

AR Prezidentinin 609 nömrəli Fərmanı onun 2 saylı əlavəsində sadalanan müəyyən malların ixrac əməliyyatları üçün qeydiyyat tələblərini irəli sürür. Fərmanın 8-ci maddəsinə əsasən 2 saylı əlavədə göstərilən malların idxalı və ixracı üzrə bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində ekspertizadan və qeydiyyatdan keçirməklə həyata keçirilir. İqtisadi İnkişaf Nazirliyindən idxal və ixrac edilən mallara dair Fərmana 2 saylı əlavədə sadalanan müvafiq orqanlardan ekspert rəylərinin alınması tələb olunur. İxrac müqaviləsini qeydiyyata almaq üçün ərizəçi müəyyən sənədləri İqtisadi İnkişaf Nazirliyinə təqdim etməlidir. Fərman qeydiyyatdan imtina edilib-edilməməsini müəyyən etmir. Fərman çöl heyvanları, yabanı bitkilər və qazıntılarda tapılmış heyvan sümükləri, vəhşi heyvanlardan və yabanı bitkilərdən dərman istehsalı üçün xammal; ilan, böyə və əqrəb zəhərləri, Azərbaycan Respublikası ərazisində quruda və dəniz iqtisadi zonası hüdudlarında yerləşən istilik enerji və mineral xammal yataqları haqqında və rayonlar üzrə məlumat, ixtiralar, "Nou Hau" və elmi tədqiqat (ixrac nəzarətinə düşənlər istisna olmaqla) işlərinin nəticələri, incəsənət əsərləri, kolleksiya əşyaları və əntiq mallar, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin ixracı üçün müqavilələrin ekspertizadan keçirilməsini və qeydiyyata alınmasını tələb edir.

**c) Mədəniyyət sərvətləri**

"*Mədəniyyət haqqında*" 430-IQ nömrəli 6 fevral 1998-ci il tarixli Qanuna əsasən mədəniyyət sərvətləri xüsusi rejim əsasında, verilmiş mühafizə dərəcəsinə müvafiq surətdə ixrac edilir. Qanun mədəni sərvətlərin ixracı üçün icazənin alınması qaydalarını müəyyən etmir və cavabdeh dövlət orqanlarının adlarını sadalamır. Prezidentin "*Mədəniyyət haqqında*" *Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə*" 698 nömrəli, 16 aprel 1998-ci il tarixli Fərmanı Mədəniyyət Nazirliyinə mədəni sərvətlərin ixracına nəzarət etmək səlahiyyətini verir. Mədəniyyət Nazirliyi mədəni sərvətlərin ixracı üçün yoxlamaların aparılması və sertifikatların verilməsi ilə əlaqədar qaydalar qəbul etmişdir. Lakin bu qaydalar dərc olunmadığı üçün əldə oluna bilən deyildir.

**ç) Metal qırıntıları**

AR Prezidentinin 17 aprel 2001-ci il tarixində imzaladığı 457 nömrəli "*Qara və əlvan metal qırıntı və tullantıları ixracının müvəqqəti dayandırılması barədə*" Fərmanını uyğun olaraq qara və əlvan metal qırıntı və tullantılarının ixracı 18 aprel 2001-ci il tarixindən etibarən dayandırılmışdır.

**d) Prekursorlar**

AR Prezidentinin "*Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında*" 782 nömrəli, 2 sentyabr 2002-ci il tarixli Fərmanı ilə prekursorların ixracı üçün lisenziyanın alınmasını tələbi qoyulmuşdur. Fərmanla lisenziyaların verilməsi qaydaları nəzərdə tutularaq Səhiyyə Nazirliyi bununla bağlı cavabdeh orqan kimi müəyyən olunur.[51]

---

[51] AR-nın "*Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının paylanması haqqında*" 28 iyun 2005-ci il tarixli Qanunu prekursorların ixracı üçün xüsusi icazənin (lisenziya) alınmasını tələb edir. Qanunda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunmur. Qanunda nəzarət edilən məhsulların siyahısı müəyyən olunmur. Bu siyahı AR-nın "*Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında*" 28 iyun 2005-ci il tarixli Qanunu ilə müəyyən olunur.

**e) İkili təyinatlı mallar**[52]

Yuxarıda qeyd edildiyi kimi, ixrac nəzarəti məsələləri AR-nın "*İxrac Nəzarəti haqqında*" 24 oktyabr 2004-cü il tarixli Qanunu ilə müəyyən olunur.[53] Qanun həm hərbi həm də mülki məqsədlər üçün istifadə edilə bilən ikili təyinatlı mallar üzərində ixrac nəzarətinin həyata keçirilməsi üçün əsasları müəyyən edir. "*İxrac nəzarəti haqqında*" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabineti 15 dekabr 2005-ci il tarixli 230 nömrəli Qərarı ikili təyinatlı malların ixracı üçün xüsusi icazə tələb edir. Qərarda xüsusi icazənin verilməsi qaydaları müəyyən olunur.

## 3.3. Yekun

Yuxarıda qeyd edildiyi kimi ixrac və idxal əməliyyatlarına dair qanunvericiliuində bir sıra problemlər, qeyri-müəyyənliklər və boşluqlar mövcuddur. Qanun, fərman və qərarların təhlili göstərir ki, idxal və ixrac lisenziyalaşdırılması sahəsində *ad hoc* yanaşması mövcuddur. Nəzərdən keçirilmiş normativ hüquqi aktlar bir çox qeyri-müəyyənliklərlə fərqlənirlər. Onlar prosedur və həyata keçirmə tələblərinə münasibətdə zəif işlənib hazırlanmışdır.

Hazırda, idxal lisenziyalaşdırmasına dair yeni qanunvericilik hazırlanır. Həmin qanunvericilikdə bir çox MDB ölkələrinin təcrübələri, həmçinin ÜTT-nin İdxal Lisenziyalaşdırması Qaydaları haqqında Sazişinin tələbləri nəzərə alına bilər. Lisenziyalaşdırma tələbləri tətbiq edilən malların idxalına lisenziyanın verilməsi üçün beynəlxalq səviyyədə təsdiq olunan qaydaların daxil edilməsi gözlənilir.

---

[52] Daha ətraflı məlumat üçün 3.1.3 (ç) bəndinə bax.

[53] Bax qeyd 43-ə.

## BÖLMƏ 4. XARİCİ TİCARƏTDƏ KƏMİYYƏT MƏHDUDİYYƏTLƏRİ

### 4.1. İdxal kvotaları

Azərbaycan Respublikasının kvotalar haqqında qanunvericiliyində bir sıra boşluqlar vardır. İdxal kvotaları qeyri-sistematik şəkildə nəzərdə tutulub. Məsələn, AR-nın "*Tütün və tütün məmulatları haqqında*" 138-IIQ nömrəli 6 iyun 2001-ci il tarixli Qanunun 4.0.6 maddəsinə və "*Üzümçülük və şərabçılıq haqqında*" 208-IIQ nömrəli 19 oktyabr 2001-ci il tarixli Qanunun 20.2 maddəsinə uyğun olaraq tütün məmulatlarının və şərabçılıq məhsullarının idxalı kvotalaşdırılır. Buna baxmayaraq, bu qanunların kvotalaşdırma müddəaları tətbiqedici normativ aktlarda öz əksini tapmamışdır.

AR Prezidentinin "*Alkoqollu içkilər, etil (yeyinti) spirti və tütün məmulatı istehsalının, saxlanmasının, idxalının və satışının tənzimlənməsi haqqında*" 527 nömrəli 20 dekabr 1996-cı il tarixli Fərmanına əsasən İqtisadiyyat Nazirliyi[54] hər il alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatının istehsalı və satışı üzrə proqnozları nəzərə almaqla həmin məhsulların idxalının yuxarı həddini müəyyən etməlidir. Lakin 2002-ci ildən sonra idxal kvotaları tətbiq olunmur.

### 4.2. İxrac kvotaları

İxrac kvotaların tarixi nisbətən qısadır. Prezidentin "*Azərbaycan Respublikasında xarici ticarətin səmərəliyinin artırılması tədbirləri haqqında*" 91 nömrəli 10 yanvar 1994-cü il tarixli Fərmanı Azərbaycan Respublikası prezidentinin icazəsi ilə ixrac olunan strateji əhəmiyyətli

---

[54] Struktur islahatlar nəticəsində bu funksiya 2001-ci ildə yaradılmış İqtisadi İnkişaf Nazirliyinə verilmişdir, AR Prezidentinin "*Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi Fərmanlarının və Sərəncamlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi Fərmanlarına və Sərəncamlarına dəyişikliklər edilməsi barədə*" 587 nömrəli, 11 oktyabr 2001-ci il tarixli Fərmanına bax.

malların siyahısını təsdiq etmişdir. Bundan bir müddət sonra, 14 fevral 1994-cü il tarixində Nazirlər Kabineti qəbul etdiyi qərarda bəyan etdi ki, Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 10 yanvar tarixli 91 nömrəli Fərmanı ilə təsdiq olunmuş respublika üçün strateji əhəmiyyətli malların siyahısına daxil olan məhsulların ixracı Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Nazirlər Kabinetinin müəyyən etdiyi kvotalara əsasən, Xarici İqtisadi Əlaqələr Nazirliyi tərəfindən həyata keçirilir, həmin nazirlik tərəfindən strateji məhsulların ixrac kvotası digər təsərrüfat subyektlərinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə verilə bilər.[55] Həmin qərarda kvotalaşdırma qaydaları da əks olunurdu. AR Prezidentinin 5 aprel 1994-cü il tarixli Fərmanı nəticəsində strateji əhəmiyyətli malların respublikadan bütün hüquqi şəxslər tərəfindən ixrac olunmasına icazə verildi.[56] 15 noyabr 1995-ci ildə Nazirlər Kabineti ixrac kvotaları ləğv elədi.[57]

### 4.3. Kvotaları tətbiq edən dövlət orqanı

Kvotalar qanunvericilik tərəfindən nəzərdə tutulub-tutulmadığından asılı olmayaraq bəzi icra hakimiyyəti orqanlarının əsasnamələri idxal və ixrac kvotaları müəyyən etmək səlahiyyətini saxlayırdılar. Kvotaları müəyyən və tətbiq etmək səlahiyyəti olan icra hakimiyyəti orqanı hökumətdə aparılan struktur islahatlarla paralel olaraq dəyişirdi. İlk əvvəl, xarici ticarətdə kvotaların tətbiqi Xarici İqtisadi Əlaqələr Nazirliyinə həvalə edilmişdir.[58]

---

55 AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası xarici ticarətin müvəqqəti qaydaları haqqında*" 62 nömrəli, 15 fevral 1994-cü il tarixli Qərarı.

56AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 125 nömrəli, 1 aprel 1994-cü il tarixli Fərmanın 1-ci bəndi.

57 AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 247 nömrəli, 15 noyabr 1995-ci il tarixli Qərarın 1-ci bəndi.

58 AR Prezidentinin "*Azərbaycan Respublikası Xarici İqtisadi Əlaqələr Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi və onun mərkəzi aparatının say tərkibinin müəyyən olunması haqqında*" 56 nömrəli, 17 iyun 1992-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Xarici İqtisadi Əlaqələr Nazirliyi haqqında Əsasnamənin 4-cü bəndi.

Xarici İqtisadi Əlaqələr Nazirliyinin 1996-cı ildə qəbul olunmuş əsasnaməsinə uyğun olaraq nazirlik yalnız ixrac və idxal kəmiyyət məhdudiyyətlərinin tətbiq edilməsi barədə təkliflər verir və bu sahədə qəbul olunmuş qərarların icrasına nəzarəti həyata keçirir.[59] Xarici iqtisadi Əlaqələr Nazirliyi ləğv olunduqdan sonra bu səlahiyyət yenidən təşkil olunmuş Ticarət Nazirliyinə keçdi.[60]

İqtisadi İnkişaf Nazirliyinin 2001-ci ildə təsis edilməsindən sonra kvotaları tətbiq etmək səlahiyyəti ona həvalə edildi. İqtisadi İnkişaf Nazirliyinin Əsasnaməsinə uyğun olaraq nazirlik qanunvericiliklə nəzərdə tutulmuş hallarda idxal və ixrac əməliyyatları üzrə kvotaları müəyyən edə bilər.[61]

Hal-hazırda idxal və ya ixrac kvotaları İqtisadi İnkişaf Nazirliyi və ya hər hansı digər icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmir və yuxarıda müzakirə olunan 527 nömrəli Fərmanın kvotalaşdırma haqqında müddəaları yerinə yetirilmir.

---

[59] AR Prezidentinin "*Azərbaycan Respublikası Xarici İqtisadi Əlaqələr Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə*" 468 nömrəli, 25 iyun 1996-cı il tarixli Fərmanı ilə təsdiqlənmiş Xarici İqtisadi Əlaqələr Nazirliyi haqqında Əsasnamənin 4.10 bəndi.

[60] AR Prezidentinin "*Azərbaycan Respublikasının Ticarət Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə*" 626 nömrəli, 26 iyul 1997-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Ticarət Nazirliyi haqqında Əsasnamənin 4.1 bəndi.

[61] AR Prezidentinin "*Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə*" 495 nömrəli, 22 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş İqtisadi İnkişaf Nazirliyi haqqında Əsasnamənin 11.6 bəndi.

# BÖLMƏ 5. XARİCİ TİCARƏTƏ TƏHLÜKƏSİZLİK, KEYFİYYƏT VƏ TƏSVİR TƏLƏBLƏRİ

## 5.1. Keçmiş Sovet İttifaqında standartlaşdırma

Keçmiş Sovet İttifaqında mövcud olan planlı iqtisadiyyat bütün ölkə ərazisində istehsalın bütün formalarına dair eyni standartların tətbiq olunmasını tələb edirdi. Bu cür eyniliyə zərurət öz növbəsində milli iqtisadiyyat planlarını dəstəkləyən və ümumi standartların işlənib hazırlanması üçün bütün imkanlara malik olan mərkəzləşdirilmiş sistemin yaradılmasını tələb etmişdir. Bu məqsədlə Sovet İttifaqında Standartlar üzrə Dövlət Komitəsi ("Qosstandart") kimi güclü ümumittifaq planlaşdırıcı və nizamlayıcı orqanı təsis edilmişdir. Bundan əlavə, on beş sovet respublikalarının hər birində öz standartlaşdırma komitəsi yaradılmışdır. Lakin, bu komitələr bütün praktiki məqsədlərə görə Moskvadakı komitəyə tabe idilər. Müdafiə sənayesi və bəzi digər ixtisaslaşdırılmış sahələr istisna olmaqla, Qosstandartın göstərişləri bütün istehsal sahələrini tənzimləyirdi. Respublikalar yalnız əlavə tələbləri irəli sürə və yaxud ümumi standartları yerli şəraitlərə uyğunlaşdıra bilərdilər. Moskvadakı mərkəzi orqanın müəyyən etdiyi standartlar isə bütün Sovetlər məkanında üstün mövqe tuturdu.

Qeyd etmək lazımdır ki, idxal edilmiş mallara dair heç bir standart mövcud deyildi. Bunun ən ağlabatan izahı odur ki, Sovet İttifaqında xarici ticarət mərkəzləşdirilmiş olaraq məhz bu məqsədlə yaradılmış nazirlik və onun təsis etdiyi kommersiya müəssisələri tərəfindən aparılırdı. Bu nazirlik Sovet İttifaqına idxal edilən mallara dair öz tələblərini irəli sürürdü. Lakin, digər ölkələrdə istehsal standartlarının fərqli olduğundan Sovet standartları xarici mallara çətin ki tətbiq edilə bilərdi.

Sovet İttifaqı tarixinin sonuncu illəri ərzində onun həyata keçirdiyi ticarət siuasətiliberallaşmaya doğru gedirdi. Bununla bağlı xarici malların idxalının artmış həcmi keyfiyyət və təhlükəsizlik baxımından müəyyən narahatlığa səbəb yaradırdı. Lakin ölkədə siyasi və iqtisadi dəyişikliklərin başlanması ilə əlaqədar idxal üzrə standartların işlənib

hazırlanması problemi digər məsələləri ilə müqayisədə daha az əhəmiyyət daşımış və həllini tapmamışdır. 1991-ci ilin sonunda, Sovet İttifaqının dağılması zamanı, xarici ticarətlə bağlı vəziyyət bu cür idi.

### 5.2. MDB çərçivəsində əməkdaşlıq

Sovet İttifaqının dağılmasından sonra onun tərkibində olmuş respublikalar öz müstəqilliyini əldə etmişdirlər, lakin bundan sonra da bu dövlətlərdə suveren hüquqi tənzimləmənin bir sıra elementləri hələ də SSRİ-nin yaratdığı dövlət orqanlarının sisteminə bənzəyirdi.

13 mart 1992-ci il tarixində keçmiş Sovet İttifaqının Respublikaları, o cümlədən Azərbaycan, onların təsis etdiyi Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində Sovet standartlaşdırma sisteminin təmin edilməsi məqsədilə "Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əlaqələndirilmiş siyasətin aparılması Saziş"ini bağlamışdırlar. Keçmişdə standartlaşdırma sahəsində olan əməkdaşlığı vurğulayaraq MDB ölkələri onların ərazisində istehsal edilmiş malların ən vacib qruplarına dair "QOST" və sahə standartlarının (yəni Sovet standartlarının) istifadəsinin davam etdirilməsi barədə razılığa gəlmişdirlər. Onlar həmçinin mallara verdikləri sertifikatları qarşılıqlı olaraq tanımağa və eyni sertifikatlaşdırma sistemini tətbiq etməyə razılaşmışdırlar. Bununla, həmin Sazişə uyğun olaraq Azərbaycan Sovet standartlaşdırma və sertifikatlaşdırma sistemini tətbiq etməyə davam edirdi.

### 5.3. Yeni orqanların yaradılması

Sovetlər dövründə Azərbaycanın standartlaşdırma orqanı Standartlaşdırma üzrə Respublika Komitəsi idi. Dövlət müstəqilliyinin əldə edilməsindən sonra bu komitə yeni dövlət orqanları strukturunun tərkibində fəaliyyət göstərməyə davam edirdi. Lakin, müstəqil Respublika öz orqanlarını yaratmaq niyyətində olaraq tezliklə standartlaşdırma üzrə yeni orqanı təsis etdi.

2 iyun 1992-ci il tarixində AR Nazirlər Kabineti Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzini (Azərdövlətstandart) yaratmış və

307 nömrəli Qərarı ilə onun Əsasnaməsini təsis etmişdir.[62] Əsasnamə Azərdövlətstandarta standartlaşdırma, metrologiya, sınaq, sertifikatlaşdırma və keyfiyyətin idarə edilməsi üzrə geniş səlahiyyətlər vermişdir. Azərdövlətstandarta həmçinin bu sahələrdə digər təşkilatların fəaliyyətini təşkil etmək və əlaqələndirmək, həmçinin bu cür fəaliyyətə nəzarət etmək həvalə edilmişdir. Qərar Azərdövlətstandarta yeni qanunvericiliyin işlənib hazırlanmasını tapşırarkən eyni zamanda yeni normativ-hüquqi aktların qüvvəyə minməsinədək sovet qanunvericiliyi aktlarının tətbiqini nəzərdə tutmuşdur. Lakin, hansı Sovet aktlarının Azərbaycanın ərazisində qüvvədə qalması və onların tətbiqinin proseduru Qərarda müəyyən edilməmişdir. Azərdövlətstandarta standartların işlənib hazırlanmasını sifariş etmək üzrə verildiyi hüquq standartların yaradılmasının əvvəllər olduğu kimi dövlətin ixtiyarında olmasını təsdiqləmişdir. Bu Qərarın xarici ticarətin tənzimləməsi tərzi onun Sovet hüquqi sənədlərinin nümunələrinə əsasən hazırlanmasının digər sübutudur. Belə ki, Qərar Azərdövlətstandarta ixrac üçün istehsal edilmiş mallara dair standartların hazırlanması və bu cür malların keyfiyyətinə nəzarət etməsi üzrə səlahiyyət vermişdir. Lakin, Qərarda Azərbaycan Respublikasına malların idxalını tənzimləyən heç bir müddəa mövcud olmamışdır. Bundan başqa, Qərar nə idxal olunan mallara dair standartların hazırlanmasına nə də bu cür malların keyfiyyətinə nəzarət edilməsinə cavabdeh olacaq heç bir orqanı müəyyən etməmişdir. Beləliklə, idxal və həmçinin ixrac edilən mallara keçmiş SSRİ qanunvericiliyinin müddəaları tətbiq edilirdi.

1 iyul 1993-cü il tarixində Nazirlər Kabineti xarici ticarətlə bağlı vəziyyəti sertifikatlaşdırma işlərinin aparılması vasitəsilə yaxşılaşdırmaq niyyətində olarkən "*Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında*" 343 nömrəli Qərar qəbul etmişdir.[63] Qərar Milli Sertifikatlaşdırma Sistemini yaratmış və bu

---

[62] Bu Qərar 27 dekabr 2001-ci il tarixində qüvvədən düşmüşdür.
[63] Bu Qərarın giriş bəndində Nazirlər Kabineti qeyd etmişdir ki, xarici iqtisadi əlaqələrin genişlənməsi və hökumətlərarası ticarət-iqtisadi sazişlərin yerinə yetirilməsi üçün məhsulların keyfiyyətinin beynəlxalq qaydalar əsasında təmin edilməsi, ilk növbədə onların sertifikatlaşdırılması tələb olunur.

sistem haqqında Əsasnaməni təsdiq etmişdir. Əsasnamədə həmin sistemə daxil olan orqanlar, həmçinin onların funksiyaları müəyyən edilmişdir. Həmin ildə Milli Sertifikatlaşdırma Sisteminin müddəalarını həyata keçirən orqanların yaradılmasını və fəaliyyətini müəyyənləşdirən bir neçə daxili sənəd Azərdövlətstandart tərəfindən işlənib hazırlanmışdır.[64]

343 nömrəli Qərarın təsdiq etdiyi Əsasnamədə həmçinin idxal edilən malların sertifikatlaşdırmasına dair gömrük orqanlarının vəzifələri də müəyyən edilmişdir. Belə ki, Azərbaycanın dövlət orqanları tərəfindən verilən uyğunluq sertifikatı və ya tanınmış xarici uyğunluq sertifikatı və gömrük bəyannaməsi müvafiq mallar Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olarkən gömrük orqanlarına təqdim edilməlidir. Həmin qayda sonralar "*İstehlakçıların hüquqlarının qorunması haqqında*" Azərbaycan Respublikasının 1113 nömrəli, 19 sentyabr 1995 tarixli Qanununda qeyd olunmuşdur. Xarici sertifikatların və uyğunluq şəhadətnamələrinin Azərbaycanın ərazisində tanınmasına gəldikdə isə onlar Azərdövlətstandartın hazırladığı normativ sənədə[65] əsasən Respublikanın iştirak etdiyi beynəlxalq sazişlərə uyğun olaraq həyata keçirilir.

Qeyd etmək lazımdır ki, Milli Sertifikatlaşdırma Sisteminin əsasını təşkil edən sənədlər açıq bazar iqtisadiyyatına keçidini əks etdirmirlər. Bundan on ildən artıq müddət əvvəl qəbul edilmiş və hələ də qüvvədə olan bu sənədlər Azərbaycanın genişlənmiş ticarət əlaqələrini müvafiq olaraq tənzimləyə bilmir və bazarda şirkətlərin və fərdi sahibkarların rolunu nəzərə almır.

### 5.4. "Standartlaşdırma haqqında" Qanun

Standartlaşdırma sahəsində qanunvericiliyin işlənib hazırlanması tələbinin irəli sürülməsindən dörd il sonra, 16 aprel 1996-cı il tarixində "*Standartlaşdırma haqqında*" 60-IQ nömrəli Qanun qəbul edilmişdir. Qanun standartlaşdırma sahəsində müvafiq orqanların vəzifələrini müəyyən

[64] RS-002-93; RS-003-93; RS-004-93; RS-005-93.

[65] 1 avqust 1994-cü il tarixindən qüvvəyə minmiş RS-008-94.

etmişdir.[66] Müxtəlif orqanların standartlaşdırma ilə bağlı fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə dövlət standartlaşdırma sisteminin yaradılması nəzərdə tutulmuşdur. Bu sistemi təşkil edən sənədlər[67] 1996-ci ildə Rusiya Federasiyasının 1992-ci il tarixli analoji sənədlər əsasında Azərdövlətstandart tərəfindən işlənib hazırlanmışdır. Azərdövlətstandartın hazırladığı sənədlərdə kifayət qədər ziddiyyətlər mövcuddur. Bir tərəfdən Milli Sertifikatlaşdırma Sistemini təşkil edən sənədlər xarici ticarətə maneçilik törətməyən standartların işlənib hazırlanmasını, həmçinin beynəlxalq standartların hətta onların dövlət standartlar kimi tanınmasından qabaq Azərbaycanda tətbiq edilməsini nəzərdə tutmuşdurlar. Digər tərəfdən isə bu sənədlər standartların qəbul edilməsi üçün çoxsəviyyəli proseduru müəyyən etmişdirlər. Bundan əlavə, sənədlərə əsasən standartlar yalnız dövlət orqanları tərəfindən qəbul edilə bilərdi, müəssisələr tərəfindən standartların qəbul edilməsi isə nəzərdə tutulmamışdır.[68]

"*Standartlaşdırma haqqında*" Qanuna qayıdarkən qeyd etmək lazımdır ki, bu Qanun da xarici ticarət məsələlərini müvafiq qaydada tənzimləmir. Belə ki, Qanun keyfiyyətsiz mallarla bağlı bütün fəaliyyətə (istehsal, idxal, satış, istifadə) qadağa qoyarkən, nə malların keyfiyyətinə nəzarət prosedurunun nə də bu cür nəzarətin həyata keçirilməsi üzrə cavabdeh orqanı müəyyən etməmişdir. İxraca gəldikdə isə, Qanundakı anlaşılmaz müddəada deyilir ki, ixrac ediləcək mallara standartlaşdırma üzrə digər sənədlər tətbiq edilməlidir. Lakin, hansı sənədlərin nəzərdə tutulduğu aydın deyildir.[69]

---

[66] Həmin orqanlar "*Standartlaşdırma haqqında*" *Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə*" Azərbaycan Respublikası Prezidentinin 503 nömrəli, 8 oktyabr 1996-cı il tarixli Fərmanında adlandırılmışdırlar.

[67] AZS 1.0-96, AZS 1.2-96, AZS 1.3-96, AZS 1.4-96, AZS 1.5-96, AZS 1.6-96.

[68] Bu sənədlərdə nəzərdə tutulan milli standartların işlənib hazırlanması və tətbiq edilməsi qaydası Sovet sisteminin prinsiplərinə əsaslanan müvafiq Rusiya normalarını (QOST R 1.2-92) əks etdirmişdirlər.

[69] Yuxarıda göstərilənləri nəzərə alarkən qeyd etmək lazımdır ki, standartlaşdırma üzrə qanunvericilik ümumiyyətlə ÜTT-nin tələblərinə cavab vermir. "*Standartlaşdırma haqqında*" Qanunun qəbul edilməsi zamanı Azərbaycan öz qanunvericiliyini bu beynəlxalq təşkilatın tələbləri ilə uyğunlaşdırmağa məcbur deyildi. Lakin indi vəziyyət dəyişmişdir və ÜTT-nin üzvü olmaq istəyən Azərbaycan öz qanunvericilik aktlarının ÜTT-nin normalarına uyğunluğunu təmin etməlidir.

Qanuna əsasən istənilən maraqlı şəxs Azərbaycan ərazisində qüvvədə olan standartları və standartlaşdırma üzrə digər sənədləri, o cümlədən beynəlxalq standartları əldə etmək hüququna malikdir. Bu cür sənədlərin və onlar barədə məlumatların əldə edilməsi təfsilatları Nazirlər Kabinetinin 1997-ci il tarixli Standartlar fondunun yaradılması haqqında[70] və Standartlar reyestrinin təşkil edilməsi haqqında[71] Qərarlarında müəyyən edilmişdir. Bu Qərarlara uyğun olaraq müvafiq fond və reyestr Azərdövlətstandart tərəfindən yaradılmışdır.

Azərbaycanın ərazisində beynəlxalq standartların tətbiq edilməsi qaydası isə Azərbaycan Respublikası Prezidentinin 26 nömrəli, 22 noyabr 1998-ci il tarixli Fərmanında müəyyən edilmişdir.[72] Bu Fərmana uyğun olaraq beynəlxalq, regional və xarici ölkələrin milli standartları, normaları və qaydaları Azərbaycan iqtisadiyyatının və istehlakçıların mənafeyinə, məhsulun keyfiyyətinə dair olan tələblərə uyğun gəldikdə, onlar Azərbaycan Respublikasının standartı kimi birbaşa tətbiq edilə bilərlər. Bu cür standartlar standartlaşdırma və sertifikatlaşdırma sahəsində beynəlxalq saziş və müqavilələr əsasında tətbiq edilməlidirlər.

---

[70] AR Nazirlər Kabinetinin "*Dövlət standartları, texniki şərtlər, sahə standartları, texniki-iqtisadi və sosial-informasiya təsnifatları, beynəlxalq (regional) və dövlətlərarası standartlar, standartlaşdırma üzrə normalar, qaydalar və tövsiyələr, xarici ölkələrin milli standartları, standartlaşdırma üzrə beynəlxalq (regional) və dövlətlərarası müqavilələr, habelə onların tətbiqi qaydaları haqqında rəsmi məlumatların və standartlaşdırma üzrə göstərilən normativ sənədlərin dövlət fondunun yaradılması Qaydaları haqqında*" 25 nömrəli, 28 mart 1997-ci il tarixli Qərarı.

[71] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasının qüvvədə olan dövlət standartlarının, standartlaşdırmaya dair digər normativ sənədlərin, habelə beynəlxalq (regional), dövlətlərarası standartların, norma, qayda və tövsiyələrin və xarici ölkələrin milli standartlarının fondlarının xüsusi dövlət reyestrinin və kataloqunun yaradılması, saxlanılması və aparılması qaydaları haqqında*" 121 nömrəli, 20 oktyabr 1997-ci il tarixli Qərarı.

[72] AR Prezidentinin "*Beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin Azərbaycan Respublikası ərazisində tanınması və tətbiq edilməsi Qaydalarının təsdiq edilməsi barədə*" 26 nömrəli, 22 noyabr 1998-ci il tarixli Fərmanı.

## 5.5. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin yaradılması

Dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə 27 dekabr 2001-ci il tarixində qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycanın Dövlət Elm və Texnika Komitəsinin və Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzinin ləğv edilməsini və onların bazasında Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin (bundan sonra "Agentlik" adlandırılacaqdır) yaradılmasını nəzərdə tutmuşdur. Bu yeni dövlət orqanının Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 799 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.[73]

Agentlik Azərdövlətstandartın hüquq varisi olarkən, onun standartlaşdırma üzrə səlahiyyətlərinə malik olmuşdur. Əsasnaməyə uyğun olaraq Agentlik Azərbaycanda malların təhlükəsizliyinə və keyfiyyətinə dair standartları müəyyən edən əsas orqandır. Agentliyə həmçinin malların idxalı və ixracı məsələlərinin tənzimlənməsi üzrə səlahiyyət verilmişdir. Belə ki, Agentliyə Azərbaycan Respublikasına idxal olunmuş və ixrac olunacaq malların standartların və digər normaların tələblərinə uyğunluğuna dövlət nəzarətini həyata keçirmək, idxal edilmiş və məcburi sertifikasiyaya aid olan malların təhlükəsizliyini təmin etmək, həmçinin elmi-texniki nailiyyətlərin, yeni texnologiya və avadanlıqların idxalı ilə əlaqədar rəylərin verilməsini təmin etmək həvalə edilmişdir.

## 5.6. Yekun

Agentliyin yaradılmasından sonra Nazirlər Kabinetinin 307 nömrəli 1992 il tarixli Qərar qüvvədən düşmüşdür. Lakin, bu Bölmədə qeyd edilmiş bütün digər normativ-hüquqi aktlar hələ də qüvvədə qalmaq-

---

[73] AR Prezidentinin "*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə*" 799 nömrəli, 10 oktyabr 2002-ci il tarixli Fərmanı.

dadır. Bu sənədlərin əksəriyyəti Azərbaycanın ÜTT-yə üzvü olmaq məqsədilə verdiyi ərizənin tarixindən əvvəl qəbul edilmişdir. Azərbaycanın standartlaşdırma üzrə qanunvericiliyi artıq köhnəlmişdir və ÜTT-nin, ona üzv olan ölkələrin iqtisadiyyatlarının harmonizasiyasına yönəldilən məqsədlərinə cavab vermir. Standartlaşdırma üzrə normativ hüquqi aktlar Azərbaycan iqtisadiyyatının inkişafının hazırkı mərhələsində xarici-iqtisadi fəaliyyətin müxtəlif aspektlərini tam şəkildə tənzimləmir.

Malların və istehsal proseslərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində istehsalçılar, istehlakçılar və dövlət arasındakı münasibətlərin effektiv tənzimlənməsi məqsədilə yuxarıda göstərilmiş qanunvericilikdə olan çatışmazlıqların aradan qaldırılması və standartlaşdırma sistemində islahatların aparılması zəruridir.

## BÖLMƏ 6. XARİCİ TİCARƏTƏ DAİR SANİTARİYA VƏ FİTOSANİTARİYA QANUNVERİCİLİYİ

Sanitar və fitosanitar tədbirlər əhalinin ərzaq təhlükəsizliyini, heyvan və bitki aləminin mühafizəsini təmin etmək niyyətində olan istənilən ölkənin qanunvericiliyində nəzərdə tutulur. Bu cür tədbirlər, məsələn, yeyinti məhsullar, heyvanlar, bitkilər, heyvan və bitki mənşəli məhsullar və xammal, baytarlıq preparatlar və ya pestisidlərin idxal və ixracına nəzarət, həmçinin sertifikatlaşdırma tələbləri xarici ticarəti məhdudlaşdıra bilərlər. Belə məhdudiyyətlər insanların sağlamlığı, xeyirli fauna və floranın mühafizəsi üçün zəruridir. Əsas məsələ sanitar və fitosanitar tədbirlərin xarici idxalçılara maneə törədərkən yerli bazarın rəqabətdən qorunması məqsədilə tətbiq edilməməkdir.

Xarici ticarətə aid olan sanitar və fitosanitar tədbirlərin həyata keçirilməsini nəzərdə tutan Azərbaycan Respublikasının qanunvericiliyi aşağıda müzakirə ediləcəkdir.

### 6.1. Sanitariya qanunvericiliyinin inkişafı

Azərbaycan Respublikasında əhalinin sanitariya-epidemioloji salamatlığını təmin etmək və dövlət sanitariya nəzarətini həyata keçirmək üçün 10 noyabr 1992-ci ildə "*Sanitariya-epidemioloji salamatlıq haqqında*" Qanun qəbul edilmişdir. Xarici ticarətin tənzimlənməsində bu qanunun məqsədi Azərbaycan Respublikası ərazisini infeksiyaların gətirilməsindən və yayılmasından, sağlamlıq üçün təhlükəli ərzaq məhsulları və istehlak əşyalarının idxalından qorumaqdan ibarətdir. Bu qanun qarşısında qoyulan məqsədlərə nail olmaq üçün sanitariya normalarına və gigiyena normativlərinə hökmən əməl edilməsini nəzərdə tutmuşdur. Sanitariya qaydalarının hazırlanması, təsdiq və nəşr edilməsi, həmçinin onların qüvvəyə minməsinin təmin edilməsi funksiyaları dövlət sanitariya-epidemioloji xidmətinə rəhbərlik etmiş dövlət sanitariya həkiminə

verilmişdir.[74] Ona həmçinin beynəlxalq sanitariya və gigiyena normalarının Azərbaycan Respublikası ərazisində tətbiq edilmə qaydasını müəyyən etmək həvalə edilmişdir.

Azərbaycan ərazisinin sanitariya və baytarlıq mühafizəsini təmin etmək məqsədilə Nazirlər Kabineti 9 mart 1993-cü il tarixində "*Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında*" 140 nömrəli Qərar qəbul etmişdir. Bu Qərara 3 saylı Əlavədə Azərbaycanın sanitar mühafizəsi qaydaları, 4 saylı Əlavədə isə Azərbaycan Respublikası sərhədində baytar nəzarəti məntəqəsi haqqında əsasnamə təyin edilmişdir.

AR-nın "*Sanitariya-epidemioloji salamatlıq haqqında*" Qanununun qəbul edilməsindən yeddi il sonra, 1999-cu ildə bu qanuna əsasən "*Məhsullara gigiyenik sertifikatın verilməsi*" Qaydaları təsdiq edilmişdir.[75] Bu Qaydalar insanların sağlamlığı üçün təhlükəli olan bütün mallara gigiyenik sertifikatın verilməsini tələb etmiş və verilmə prosedurunun təyin etmişdir. Lakin, həmin qaydalar gigiyenik reyestrə dair hər hansı müddəaları daxil etməmişdir.

## 6.2. Heyvanlarla ticarəti tənzimləyən orqanların yaradılması

Heyvanlarla, heyvan mənşəli məhsullar və xammalla ticarəti tənzimləyən baytarlıq təbabəti xidməti "*Baytarlıq təbabəti haqqında*" 825 nömrəli 17 iyun 1994-cü il tarixli Qanuna[76] uyğun olaraq yaradılmışdır.

---

[74] Sanitariya qaydalarının hazırlanması, nəşr edilməsi, qüvvəyə minməsi və dəyişdirilməsi qaydası AR Səhiyyə Nazirliyinin 28 nömrəli, 8 Fevral 1994-cü il tarixli Əmri ilə təsdiq edilmişdir. Sanitariya-gigiyenik qaydalarının işlənib hazırlanması, təsdiqi, qüvvəyə minməsi, nəşri, yenidən baxılmasının təşkili və icrasına nəzarət sanitariya-epidemioloji xidmətinə həvalə edilmişdir. Səhiyyə Nazirliyi həmçinin digər əlaqədar orqanlar və təşkilatlara sanitariya qaydalarının işlənib hazırlanmasını sifariş etmək hüququna malik idi.

[75] AR Səhiyyə Nazirliyinin 59 nömrəli, 11 May 1999-cu il tarixli Əmri.

[76] Bu qanun 31 may 2005-ci il tarixli AR-nın "*Baytarlıq haqqında*" Qanunun qüvvəyə mindiyi gündən qüvvədən düşmüşdür.

Qanuna əsasən baytarlıq təbabəti xidməti dövlət və fərdi baytarlıq təbabəti xidmətlərindən ibarət idi. Həmin xidmətə həmçinin baytarlıq təbabətində istifadə edilən xarici preparatlara nəzarəti həyata keçirmək həvalə edilmişdir.

Bu Qanunla əlaqədar olaraq Dövlət Baytarlıq Komitəsi (hazırda Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti)[77] 12 may 1998-ci il tarixində "*Azərbaycan Respublikasında baytarlıq nəzarətində olan yüklərin ixracı və idxalının tərtibatı haqqında qaydalar*"ı təsdiq etmişdir. 21 may 1998-ci il tarixində Ədliyyə Nazirliyində qeydiyyata alındıqdan sonra qüvvəyə minmiş bu Qaydalar[78] heyvan mənşəli yeyinti məhsullarının idxalı və ixracını tənzimləyirdi. Bu Qaydalar həmçinin diri heyvanların idxal prosedurunu müəyyən etmişdir. Baytarlıq nəzarətinə düşən mallar (baytarlıq nəzarətinə düşən malların siyahısı idxal-ixrac qaydalarına əlavə olunmuşdur) yalnız Azərbaycan Respublikası Dövlət Baytarlıq Xidmətindən icazə alınmaqla idxal oluna bilər. Bu Qaydalarda idxalatçı tərəfindən icazənin alınması proseduru nəzərdə tutulur.[79] İdxal üçün əlavə tələblər ixracatçı ölkədə epizootiya vəziyyətindən asılı olaraq Azərbaycan Respublikasının Dövlət Baytarlıq Xidməti tərəfindən müəyyən oluna bilər.

---

[77] AR Prezidentinin "*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət agentlikləri və dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə*" 226 nömrəli, 20 aprel 2005-ci il tarixli Fərmanına uyğun olaraq, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Komitəsi Dövlət Baytarlıq Xidməti kimi yenidən təşkil edilmişdir.

[78] Baytarlıq idxal-ixrac qaydaları 31 may 2005-ci il tarixli, 922-IIQ nömrəli AR-nın "*Baytarlıq haqqında*" Qanunu ilə ləğv olunan keçmiş 17 iyun 1994-cü il tarixli, 825 nömrəli AR-nın "*Bayatlıq təbabəti haqqında*" Qanuna əsasən qəbul edilməsinə baxmayaraq qüvvədədir.

[79] İdxalatçı Azərbaycan Respublikasının Dövlət Baytarlıq Xidmətindən icazə aldıqdan sonra sertifikatı və yükü yoxlama üçün sərhəd baytar nəzarəti məntəqəsinə təqdim etməlidir. Əgər malların Azərbaycan Respublikasının ərazisinə buraxılması təsdiq edilirsə, sərhəd baytar xidməti beynəlxalq baytarlıq sertifikatı şəhadətnamə ilə əvəz edir.

Damazlıq ehtiyatları ilə xarici ticarət "*Damazlıq işi haqqında*" 46-IQ nömrəli, 26 mart 1996-cı il tarixli Qanunla tənzimlənirdi. Qanunla Dövlət damazlıq xidmətinə damazlıq ehtiyatlarının idxal və ixracını tənzimləməsi həvalə edilmişdir. Bu xidmət həmçinin damazlıq işi sahəsində standartlar, normalar və təlimatlar hazırlamaq və təsdiq etmək hüququna malik idi. Eyni zamanda qanunda deyilir ki, bu işlənmiş sənədlər səlahiyyətli orqanların təsdiqinə də verilə bilər.[80] Lakin, bu qanun nə belə səlahiyyətli orqanları nə də sənədlərin layihələrinin onların təsdiqinə verilmə hallarını müəyyən etməmişdir. Bundan başqa, qanun belə sənədlərin qəbul edilməsi qaydasını da nəzərdə tutmamışdır. Bu qanuna əsasən damazlıq işi sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər damazlıq heyvanlarının geniş təkrar istehsalı məqsədilə idxal və ixrac edilən damazlıq ehtiyatlarından gömrük rüsumu tutulmasında güzəştlərdən istifadə edə bilərlər.[81] Lakin qanundan belə güzəştlərin həcmi aydın deyildir.

### 6.3. Fitosanitar tədbirləri

Azərbaycan florasını mühafizə etmək məqsədilə 1996-cı ildə iki qanun qəbul edilmişdir. "*Bitki karantini haqqında*" 70-IQ nömrəli Qanun 23 aprel 1996-cı il tarixində qəbul edilmişdir.[82] Bu qanun Azərbaycan Respublikası ərazisində bitki karantininin təşkili və həyata keçirilməsini təmin etmişdir. Qanunda Dövlət bitki karantini xidmətinin təşkili nəzərdə tutulmuşdur. Bu qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 469 nömrəli Fərmanına əsasən həmin xidmətin səlahiyyətləri "Azərkarantin" Dövlət Bitkiləri Karantin Müfəttişliyinə verilmişdir.[83] Qanuna əsasən bu xidmət idxal, ixrac və tranzit daşımaları zamanı karantin nəzarəti altında olan malların karantin yoxlanmasını həyata keçirirdi və karantin nəzarəti altında olan yüklərin

---

[80] Maddə 9.
[81] Maddə 16.
[82] Bu qanun 4 avqust 2006-cı il tarixində qüvvədən düşdü.
[83] *"Bitki karantini haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə*" 469 nömrəli 7 iyul 1996-cı il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

fitosanitar sertifikatı verirdi.[84] Bu xidmətə həmçinin karantin nəzarətində olan digər obyektlərə bitki karantin sertifikatı və idxal karantin icazəsi vermək həvalə edilmişdir.[85]

"*Bitki karantini haqqında*" Qanunla əlaqədar olaraq Nazirlər Kabineti 13 aprel 2004-cü il tarixində "*Azərbaycan Respublikasının ərazisində aşkar olunmayan və ya məhdud dairədə yayılan ziyanvericilərin, bitki xəstəlikləri törədicilərinin və alaq otlarının (karantin obyektlərinin) Siyahısı*"nı təsdiq etmişdir.[86]

Digər qanun "*Bitki mühafizəsi haqqında*" 210-IQ nömrəli, 3 dekabr 1996-cı il tarixli Azərbaycan Respublikasının Qanunu idi.[87] Bu qanun bitki mühafizəsinin və fitosanitar nəzarətin həyata keçirilməsi şərtlərini müəyyən etmişdir. Bu qanun həmçinin idxal məsələlərini tənzimləyirdi. Beləliklə, Azərbaycanda və ya başqa ölkələrdə dövlət sınağından keçməmiş, qeydə alınmamış, habelə istifadəsi qadağan olunmuş preparatların xaricdən gətirilməsi və tətbiqi qadağan olunmuşdur. Qanunda həmçinin deyilirdi ki, idxal edilən kənd təsərrüfatı və ərzaq məhsullarının keyfiyyəti təhlükəsizlik baxımından Azərbaycan Respublikası standartlarının tələblərinə uyğun gəlməli, müvafiq sertifikatlarla müşayiət edilməli idi.[88] Lakin hansı standart və sertifikatların nəzərdə tutulduğu qanunda göstərilməmişdir. Qeyd edilməlidir ki, qanunda ixrac tənzimlənməsinə dair heç bir müddəa mövcud olmamışdır.

## 6.4. Toxumlarla ticarətin tənzimlənməsi

Toxumlarla ticarət 11 mart 1997-ci il tarixində qəbul edilmiş "*Toxumçuluq haqqında*" 257-IQ nömrəli Qanunun müddəaları ilə tənzim-

---

[84] Maddə 6.

[85] Sonralar bu xidmətin səlahiyyətləri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizəsi və Karantini idarəsinə, daha sonra isə Dövlət Fitosanitar Nəzarəti Xidmətinə ötürülmüşdür (aşağıda verilən məlumatlara bax).

[86] Nazirlər Kabinetinin 44 nömrəli 13 aprel 2004-cü il tarixli Qərarı.

[87] Bu qanun 4 avqust 2006-cı il tarixində qüvvədən düşdü.

[88] Maddə 14.

lənir. Toxumların keyfiyyətini təmin etmək məqsədilə bu qanun toxumların sertifikatlaşdırılmasını məcburi etmişdir. Qanuna əsasən Dövlət toxumçuluq xidməti yaradılmışdır. Həmin xidmətin səlahiyyətləri becəriləcək bitkilərin növündən (kənd təsərrüfatı, meşə və dərman bitkiləri) asılı olaraq Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Səhiyyə Nazirliyinə verilmişdir.[89] Bu xidmətə toxumçuluq sahəsində standartların, qayda və normaların hazırlanması və təsdiq edilməsi həvalə edilmişdir. Qanunda həmçinin bu cür işlənmiş sənədlərin digər müvafiq orqanın təsdiqinə verilməsi nəzərdə tutulmuşdur. Lakin hansı müvafiq orqanın nəzərdə tutulduğu və standartların və digər sənədlərin hansı hallarda həmin orqan tərəfindən təsdiq edilməsi qanundan aydın deyildir. Dövlət standartlarına cavab verməyən toxumlara gəldikdə isə, belə toxumların təhlili nəticəsini əks etdirən vəsiqələr tələb edilmişdir. Qanuna əsasən, keyfiyyət şəhadətnaməsi yalnız toxum istehsalçılarının reyestrinə daxil edilmiş hüquqi və fiziki şəxslərin istehsal etdikləri toxumlara verilə bilər. Xarici dövlətlərdən Azərbaycana yalnız dövlət reyestrində qeydiyyatdan keçmiş, perspektivli sayılan sortların toxum şəhadətnaməsi və fitosanitar sertifikatı olan toxumları idxal oluna bilər.[90] Bundan əlavə, qanunda qeydiyyatdan keçməmiş sortların toxumlarının Azərbaycana idxal edilməsi halları göstərilmişdir.[91] Toxumların karantin icazəsi olmayan vasitələrlə idxal və ixracına yol verilmir. Qanun toxumların idxal və ixracı zamanı beynəlxalq sertifikatların qəbul edilməsini nəzərdə tutmuşdur. Lakin hansı beynəlxalq sertifikatların nəzərdə tutulduğu aydın deyildir.[92]

Bu yaxınlarda AR Nazirlər Kabineti genetik yolla alınmış toxumlarla ticarəti tənzimləmək məqsədilə "*Gen mühəndisliyi əsasında alınmış bitki toxumlarının Azərbaycan Respublikasının ərazisinə gətiril-*

---

[89] "*Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə*" 569 nömrəli, 7 aprel 1997-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

[90] Maddə 27.

[91] Maddə 26.

[92] Bununla yanaşı, qanundakı anlaşılmayan müddəada deyilir ki, beynəlxalq sertifikatlar əməkdaşlıq müqavilələrində başqa şərtlər nəzərdə tutulmamışdırsa qəbul edilməlidir.

*məsinə yol verilə bilən müstəsna hallar və gətirilmə Qaydası*"nı təsdiq edən Qərar qəbul etmişdir.[93] Qərarda bu cür bitki toxumlarının idxalına icazə verilən hallar, həmçinin idxalın təfsilatlı proseduru göstərilir. Genetik dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş orqanizmləri Azərbaycana idxal etmək hüququ Kənd Təsərrüfatı Nazirliyi və Milli Elmlər Akademiyasına verilmişdir. Bu orqanlara eləcədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Səhiyyə Nazirliyinə bu cür orqanizmlərlə bağlı fəaliyyət mexanizmlərini müəyyən etmək səlahiyyəti verilmişdir.

### 6.5. Pestisidlər üzrə tələblər

Pestisidlərin idxal və ixracı məsələləri AR-nın "*Pestisidlər və aqrokimyəvi maddələr haqqında*" 294-IQ nömrəli, 6 may 1997-ci il tarixli Qanunu ilə tənzimlənirdi.[94] Qanun sahibkarlardan istehsal etdikləri və xaricdən gətirdikləri bitki mühafizəsi vasitələrinin, kimyəvi və bioloji maddələrin keyfiyyətinə zəmanət verməsini tələb etmişdir. Həmin preparatların sənədləşdirilməsi Kənd Təsərrüfatı Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinə həvalə edilmişdir.[95] Mənşəyi və keyfiyyətləri barədə sertifikatları olmayan pestisidlərin və aqrokimyəvi maddələrin Azərbaycan Respublikasına gətirilməsi qadağan edilmişdir. Pestisidlərin və aqrokimyəvi maddələrin standartlaşdırılması və sertifikatlaşdırılmasını Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi həyata keçirirdi.[96] Qanunda heç bir sertifikatlaşdırma prosedurunun nəzərdə tutulmadığından Milli Sertifikatlaşdırma Sisteminin qaydaları tətbiq edilmişdir. Eyni zamanda qanun pestisidlərin və aqrokimyəvi maddələrin idxal və ixrac edilməsin-

---

[93] AR Nazirlər Kabinetinin 53 nömrəli, 18 fevral 2006-cı il tarixli Qərarı.

[94] Bu qanun 4 avqust 2006-cı il tarixində qüvvədən düşdü. Həmin tarixdən etibarən pestisidlərlə bağlı məsələlər AR-nın "*Fitosanitar nəzarəti haqqında*" Qanunu ilə tənzimlənir,

[95] "*Pestisidlər və aqrokimyəvi maddələr haqqında*" *Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə*" 618 nömrəli, 25 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

[96] "Pestisidlər və aqrokimyəvi maddələr haqqında" Qanunun 13-cü maddəsi; Prezidentin 618 nömrəli Fərmanının 2(7) bəndi.

də beynəlxalq sertifikatların qəbul edilməsini müəyyən etmişdir.[97] Qeydiyyatdan keçməmiş pestisidlər və aqrokimyəvi maddələr isə yalnız müəyyən olunmuş hallarda Kənd Təsərrüfatı Nazirliyinin nəzarəti altında idxal və ixrac oluna bilərdi.[98] Pestisidlər və aqrokimyəvi maddələrin idxal və ixracına dövlət nəzarəti Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Baytarlıq Komitəsinə (hazırda Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti) həvalə edilmişdir.[99]

"*Pestisidlər və aqrokimyəvi maddələr haqqında*" Qanunla əlaqədar olaraq Nazirlər Kabineti 20 oktyabr 1997-ci il tarixində bəzi normativ hüquqi aktları təsdiq edən 20 nömrəli qərar qəbul etmişdir.[100] Pestisidlərin və aqrokimyəvi maddələrin sertifikatlaşdırma Qaydasına əsasən bu

---

[97] Lakin, hansı beynəlxalq sertifikatların nəzərdə tutulduğu aydın deyildi.

[98] Qanunun 14 (4) maddəsi.

[99] Bu orqanlar Prezidentin 618 nömrəli Fərmanında qeyd olunmuşdurlar.

[100] Bu aktlar aşağıdakılardır: "*Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı barədə təlimat», «Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyatı qaydası*"; "*Pestisidlərin və aqrokimyəvi maddələrin sertifikatlaşdırma qaydası*"; "*Kənd təsərrüfatında zəhərli kimyəvi preparatların saxlanmasının, daşınmasının, tətbiqinin və satışının sanitariya qaydalar*"; "*Yüksək toksiki-ekoloji təhlükəli pestisidlərin və aqrokimyəvi maddələrin siyahısı*"; "*İstifadəsi yararsız və qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin geri alınması, zərərsizləşdirilməsi və məhv edilmə qaydası*"; "*İstifadəsi mümkün olmayan kənd təsərrüfatı və ərzaq məhsullarının geri alınması, zərərsizləşdirilməsi və məhv edilmə qaydas*"; "*Pəhriz və uşaq qida maddələrinin istehsalı üçün xüsusi xammal bölgələrinin hüdudları, hüquqi və texnoloji rejimi*"; "*Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı barədə təlimat"; "Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyatı qaydası*"; "*Pestisidlərin və aqrokimyəvi maddələrin sertifikatlaşdırma qaydası*"; "*Kənd təsərrüfatında zəhərli kimyəvi preparatların saxlanmasının, daşınmasının, tətbiqinin və satışının sanitariya qaydaları*"; "*Yüksək toksiki-ekoloji təhlükəli pestisidlərin və aqrokimyəvi maddələrin siyahısı"; "İstifadəsi yararsız və qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin geri alınması, zərərsizləşdirilməsi və məhv edilmə Qaydası*", "*İstifadəsi mümkün olmayan kənd təsərrüfatı və ərzaq məhsullarının geri alınması, zərərsizləşdirilməsi və məhv edilmə qaydası*"; "*Pəhriz və uşaq qida maddələrinin istehsalı üçün xüsusi xammal bölgələrinin hüdudları, hüquqi və texnoloji rejimi*".

cür məhsullara sertifikatın verilməsi onların tanınması üçün məcburidir. Bu Qaydaya uyğun olaraq Milli Sertifikatlaşdırma Sisteminin normaları tətbiq edilməlidir.

## 6.6. "Fitosanitar nəzarəti haqqında" Qanun

4 avqust 2006-jı il tarixində Azərbaycanda "*Fitosanitar nəzarəti haqqında*" Qanun qüvvəyə mindi.[101] Bu qanun fitosanitar nəzarəti, bitki mühafizəsi və bitki karantini sahəsində hüquqi tənzimləməni nəzərdə tutur. "*Fitosanitar nəzarəti haqqında*" Qanun qüvvəyə mindiyi gündən "*Bitki karantini haqqında*", "*Bitki mühafizəsi haqqında*" və "*Pestisidlər və aqro-kimyəvi maddələr haqqında*" Qanunlar qüvvədən düşdü.

Qanun fitosanitar nəzarətinin əhatə dairəsini və bu cür nəzarətdə olan karantin obyektlərini müəyyən edir. Qanuna əsasən pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin idxalı və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslərin fəaliyyəti də fitosanitar nəzarətinin əhatə dairəsindədir. Qanunun müəyyən etdiyi fitosanitar nəzarətinin əsas prinsipləri ÜTT-in Sanitar və Fitosanitar Tədbirləri Haqqında Sazişinə uyğundur. Qanun həm dövlət həm də qeyri-dövlət fitosanitar xidmətinin fəaliyyətini nəzərdə tutur.

AR Prezidentinin 2 avqust 2006-cı il tarixli Fərmanına[102] əsasən, bitki mühafizəsi və karantini, pestisidlərin, bioloci preparatların və digər bitki mühafizə vasitələrinin istifadəsi sahəsində dövlət nəzarətini Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti həyata keçirir. Həmin Xidmətə xarici ticarətə aid səlahiyyətlər də verilir. Bununla, Xidmət pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin idxalı və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxsləri uçota götürmək hüququna malikdir. Bu Xidmətə dövlət sınağından keçmiş və təhlükəsizliyi təsdiq edilmiş pestisidlər, bioloji preparatlar və aqrokimyəvi maddələri qeydiyyata almaq və Azərbaycanda istifadə edilə bilən preparatlar siyahısına daxil etmək həvalə olunur. Sınağından keçməmiş, qeydiyyata alınmamış və istifadəsi qadağan olunmuş pestisidlər, bioloji preparatlar və aqrokimyəvi maddələrə gəldikdə isə, Xidmətə onların idxal və ixracının qarşısını almaq tapşırılır. Qanuna əsasən, bu Xidmətin həmçinin bitki və bitkiçilik məhsul-

---

[101] AR-nın "*Fitosanitar nəzarəti haqqında*" 12 may 2006-cı il tarixli Qanunu.

[102] AR Prezidentinin "*Fitosanitar nəzarəti haqqında*" Qanunun tətbiq edilməsi barədə" 2 avqust 2006-cı il tarixli Fərmanı.

larının idxalı və ixracına, Azərbaycan ərazisində tranzit daşınmasına və dövriyyəsinə idxal karantin icazəsi və fitosanitar sertifikatları vermək hüququ vardır. Lakin bu cür icazə və sertifikatların verilməsi qaydaları hələ işlənib hazırlanmalıdır.[103] Dövlət fitosanitar müfəttişlərinə Azərbaycana gətirilən və buradan aparılan karantin nəzarətində olan materiallara, o cümlədən gətirilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışı keçirmək və laboratoriya ekspertizasını aparmaq həvalə edilir.[104]

Qanun Azərbaycan ərazisini digər dövlətlərdən keçə biləcək zərərli orqanizmlərdən qorumaq məqsədilə bitki və bitkiçilik məhsullarının idxalı ilə bağlı müəyyən fitosanitar tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur.[105] Qanuna əsasən dövlətin ərazisi üçün ciddi təhlükə yaradan karantin tətbiq edilən zərərli orqanizmlərin aşkar edilməsi təqdirdə təxirəsalınmaz tədbirlər görülməli və bu barədə əlaqədar beynəlxalq təşkilatlara məlumat verilməlidir. Lakin, qanundan hansı beynəlxalq təşkilatların nəzərdə tutulduğu aydın deyildir.

Zəhərli kimyəvi maddələrin idxalı və ixracı isə qanunun 30-cu maddəsi ilə tənzimlənir. Azərbaycana istehsalatda sınaqdan keçirmək, qeydiyyata almaq və elmi-tədqiqat işlərində istifadə etmək məqsədilə xaricdən gətirilən pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin miqdarının müəyyən edilməsi Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilir.[106]

Azərbaycandan ixrac edilən bitki və bitkiçilik məhsullarına gəldikdə isə, qanun onların sertifikatlaşdırılmasını tələb edir və müvafiq fitosanitar sertifikatlarının verilməsi şərtlərini müəyyən edir.

Yuxarıda qeyd edildiyi kimi, qanun qeyri-dövlət fitosanitar xidmətinin fəaliyyətinə dair da müddəaları əhatə edir. Qanuna əsasən, bu cür xidmətin subyektləri istehsal etdikləri və xaricdən gətirdikləri preparatların sənədləşdirilməsi üçün müvafiq icra hakimiyyəti orqanlarına müraciət etmək hüququna malikdirlər.

---

[103] AR Prezidentin 2 avqust 2006-cı il tarixli Fərmanına əsasən həmin qaydaların müəyyənləşdirilməsi Nazirlər Kabinetinə tapşırılmışdır.
[104] Bu cür baxışın keçirilməsi və ekspertizanın aparılması qaydaları da Nazirlər Kabineti tərəfindən müəyyən edilməlidir.
[105] Qanunun 13-cü maddəsi.
[106] AR Prezidentin 2 avqust 2006-cı il tarixli Fərmanının 2.4-cü maddəsi.

Qeyri-dövlət fitosanitar xidmətinin subyektlərindən, onlar tərəfindən istehsal və idxal edilən bitki və bitkiçilik məhsullarının, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin keyfiyyət və təhlükəsizliyinə zəmanət verməkdən tələb olunur.

## 6.7. Yeyinti məhsulların tənzimlənməsi

Əhalinin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə "*Yeyinti məhsulları haqqında*" 759-IQ nömrəli, 18 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu yeyinti məhsullarının keyfiyyətinə, istehsalına və satışına nəzarət etməsini nəzərdə tutmuşdur. "*Yeyinti məhsulları haqqında*" Qanun dövlət gigiyena qeydiyyatına alınmayan və uyğunluq sertifikatı və ya tanınmış xarici uyğunluq sertifikatları ilə müşayiət olunmayan yeyinti məhsullarının Azərbaycan Respublikasının gömrük ərazisinə daxil edilməsinə yol verməmişdir.[107] Sərgilərdə nümayiş, tədqiqat və sınaq məqsədilə idxal edilən yeyinti məhsulları üçün istisnalar mümkündür. "*Yeyinti məhsulları haqqında*" Qanun yalnız ümumi tənzimləyici çərçivənin əsaslarını müəyyən etmişdir. Daha təfsilatlı qaydalar "*Yeyinti məhsulları haqqında*" Qanunla əlaqədar qəbul edilmiş yeyinti məhsulları haqqında digər normativ hüquqi aktlarda tapılır.[108]

"*Yeyinti məhsulları haqqında*" Qanun yerli və idxal edilən yeyinti məhsullarının tərkibi kimyəvi, bioloji, toksikoloji və radioloji göstərici-

---

[107] Maddə 14.

[108] "*Yeyinti məhsulları haqqında*" *Qanunun tətbiq edilməsi barədə*" Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2000-ci il tarixli, 267 nömrəli Fərmanı; "*Yeyinti məhsulları haqqında*" Qanunun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2003-cü il tarixli, 969 nömrəli Fərmanı; Nazirlər Kabinetinin 31 oktyabr 2003-cü il tarixli, 218 nömrəli Sərəncamı; "*İstifadəyə yarasız yeyinti məhsullarının götürülməsi, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydaları*"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 fevral 2005-ci il tarixli, 27 nömrəli Qərarı; "*Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları*"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 16 avqust 2005-ci il tarixli, 154 nömrəli Qərarı.

lərinə görə ekspertizadan keçirilməsini tələb etmişdir. Ekspertiza müsbət nəticələnəndə, bu məhsullar dövlət gigiyena qeydiyyatına alınır və Səhiyyə Nazirliyi tərəfindən gigiyenik sertifikat verilir. Buna baxmayaraq, bu müddəaların tələblərini həyata keçirmək üçün hər hansı qayda və ya prosedurlar mövcud deyildir. Bundan başqa, bu qanun yeyinti məhsulları sahəsində standartların qəbul edilməsi üçün hər hansı qaydaları əks etdirməmişdir.

Yeyinti məhsullarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin standart və tələblərə uyğunluğunun təmin edilməsi məqsədilə, "*Yeyinti məhsulları haqqında*" Qanunda yeyinti məhsullarının sertifikatlaşdırılması tələb olunur. "*Yeyinti məhsulları haqqında*" Qanun sertifikatlaşdırmaya dair təfsilatlı qaydaları daxil etməmiş və yalnız sertifikatların forması və verilmə qaydalarının səlahiyyətli icra orqanı[109] tərəfindən müəyyən edildiyini, sertifikatlaşdırmanın müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirildiyini bəyan etmişdir.

267 nömrəli Fərmanla AR Nazirlər Kabinetinə iki ay müddətində gigiyenik sertifikatlaşdırma qaydalarına, eləcə də yeyinti məhsullarına verilən sertifikatların növləri və sertifikatlaşdırma qaydalarına dair təkliflərin hazırlaması tapşırılmışdır. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentin 969 nömrəli Fərmanında Nazirlər Kabinetinə yeyinti məhsullarının gigiyena qeydiyyatına alınması və gigiyena reyestrinin aparılması qaydalarını müəyyən etməyi və uyğunluq, gigiyenik və fitosanitar sertifikatlarının və baytarlıq şəhadətnaməsinin verilməsi formalarının və verilməsi qaydalarının bir ay müddətində hazırlanması tapşırılır. Bu Fərmanın 1-ci bəndində sertifikatların dörd növünün olması bəyan edilir: uyğunluq sertifikatı, gigiyenik sertifikat, fitosanitar sertifikat və baytarlıq şəhadətnaməsi. Həmçinin hər bir sertifikat növü üçün icra orqanlarının adları müəyyən olunur: uyğunluq sertifikatı – Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, gigiyenik sertifikatı – Səhiyyə Nazirliyi, fitosanitar sertifikatı və baytarlıq şəhadətnaməsinin verilməsi – Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilir. Bundan başqa, 1-ci bənddə Azərbaycan Respublikasından

---

[109] 696 nömrəli Fərmana əsasən bu səlahiyyətli icra orqanı Nazirlər Kabinetidir.

Avropa İttifaqı ölkələrinə ixrac edilən balıq və digər dəniz məhsullarına keyfiyyət sertifikatının İqtisadi İnkişaf Nazirliyi tərəfindən verilməsi müəyyən olunur. Buna baxmayaraq, 267 və 969 nömrəli Fərmanların tələb etdiyi sertifikatlaşdırma qaydaları hələ də hazırlanmamışdır. Bundan əlavə, 969 nömrəli Fərmanda tələb olunan yeyinti məhsullarına baytarlıq və fitosanitar sertifikatlarının verilməsi üçün prosedur qaydaları hələ də mövcud deyildir. Hazırkı qanunvericilikdə yeyinti məhsullarının baytarlıq və fitosanitar sertifikatlaşmasının həyata keçirilməsi üsulları və qaydaları aydın şəkildə müəyyən olunmur.

AR Nazirlər Kabinetinin 218s nömrəli Sərəncamında aidiyyəti nazirliklərə gigiyena qeydiyyatına alınması qaydalarının hazırlanması və uyğunlaşdırılması, fitosanitar sertifikatın və baytarlıq şəhadətnaməsinin verilməsinin forma və qaydalarının hazırlanması tapşırılır. Buna baxmayaraq, bu cür qaydalar hələ də hazırlanmamışdır.

AR-nın "*Yeyinti məhsulları haqqında*" Qanunda bəyan edilmişdir ki, müvafiq icra hakimiyyəti orqanları yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti funksiyalarını öz səlahiyyətləri daxilində həyata keçirirlər. AR Prezidenitinin 969 nömrəli Fərmanına və AR Nazirlər Kabinetinin 154 nömrəli Qərarına əsasən, bu kimi nəzarətin həyata keçirilməsinə cavabdeh olan orqanlar aşağıdakılardır: İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi. Nazirlər Kabinetinin 154 nömrəli Qərarına əsasən, yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti aşağıdakı mərhələlərdə həyata keçirilməlidir: idxal, ixrac, istehsal, alış-satış, tədarük, saxlanma və daşınma. Buna baxmayaraq, 154 nömrəli Qərarda konkret mərhələdə yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin hansı məsul orqan tərəfindən həyata keçirilməsi müəyyən olunmur.

Qanunvericilikdən belə görünür ki, "*Yeyinti məhsulları haqqında*" Qanunda yeyinti məhsulları kimi müəyyən edilən idxal məhsullarına uyğunluq, baytarlıq, fitosanitar və ya gigiyenik sertifikatları verilməlidir. Hal-hazırda yalnız baytarlıq idxal sertifikatlarının verilməsi qaydaları

qəbul edilmişdir. Buradan belə bir nəticəyə gəlmək olar ki, bütün digər sertifikatlar müvafiq dövlət orqanlarının mülahizəsinə görə verilir.

### 6.8. Sanitar və fitosanitar tədbirlər üzrə digər qanunvericilik aktları

16 iyun 2000-ci il tarixində Azərbaycan Respublikasında "*Taxıl haqqında*" 898-IQ nömrəli Qanun qəbul edilmişdir. Bu qanun Azərbaycanda taxıl istehsalının, tədarükünün və bazarının təşkilinin, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsini müəyyən etmişdir. Qanuna əsasən, Azərbaycana dövlət reyestrində qeydiyyatdan keçmiş və uyğunluq sertifikatı və ya onun tanınması barədə şəhadətnaməsi olan taxıl idxal oluna bilər. Azərbaycan Respublikasında istehsal edilən və respublikaya gətirilən taxıl məhsullarının kimyəvi, bioloji, toksikoloji və radioloji göstəricilərinə görə İqtisadi İnkişaf Nazirliyinin müəyyən etdiyi laboratoriyalarda təhlil edilməsi və qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Taxıl emalı məhsulları Səhiyyə Nazirliyi tərəfindən dövlət reyestrində gigiyena qeydiyyatına alınmalıdır.[110]

Həmçinin, taxıl məhsullarının keyfiyyətini qiymətləndirmək məqsədilə Qanunda sertifikatlaşdırmanın həyata keçirilməsi nəzərdə tutulmuşdur. Lakin, nə taxıl sertifikatlaşdırılma qaydaları nə də bu qaydaların hansı normativ sənədlərlə tənzimlənməsi müəyyən edilməmişdir. Qeyd olunmalıdır ki, Qanunda taxıl ixracı məsələləri tənzimlənməmişdir. Qanunda yalnız deyilir ki, taxıl məhsullarının ixracı Azərbaycan qanunvericiliyinə və beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçirilməlidir. Lakin, hansı yerli və ya beynəlxalq aktların nəzərdə tutulduğu aydın deyildir.

Azərbaycanda sanitar və fitosanitar qanunvericiliyinin inkişafına baxarkən bir vaxtlar Kənd Təsərrüfatı Nazirliyinin tərkibində fəaliyyət göstərmiş Bitki Mühafizəsi və Bitki Karantini idarəsini qeyd etmək lazımdır. Bu idarənin əsasnaməsi Kənd Təsərrüfatı Nazirinin 16 avqust

---

[110] AR-nın Prezidentin "*Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə*" 959 nömrəli, 23 oktyabr 2003-cü il tarixli Fərmanı.

2000-ci il tarixli Əmri ilə təsdiq edilmişdir. Həmin idarəyə bitki və bitki mənşəli məhsulları, toxum və pestisidlərin idxal və ixracını tənzimləmək həvalə edilmişdir.

Bu idarə "*Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında*" 467 nömrəli, 23 oktyabr 2004-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış Dövlət Fitosanitar Nəzarəti Xidməti ilə əvəz edilmişdir. Həmin Xidmətin Əsasnaməsini 226 nömrəli, 20 aprel 2005-ci il tarixli Prezidentin Fərmanı təsdiq etmişdir.[111] Bu Xidmətin səlahiyyətləri daxilində pestisidlərin və digər preparatların idxalına və ixracına nəzarət etməsi, karantin nəzarətində olan yüklərin idxalı və ixracı zamanı aşkar olunmuş karantin orqanizmlərinin zərərsizləşdirilməsi üzrə tədbirlərin görülməsi, karantin nəzarətində olan bitki və bitki mənşəli məhsulların, meşə və dekorativ bitkilərin toxumlarının, əkin materiallarının, karantin obyektlərini yaya bilən digər bitki mənşəli məhsulların ölkəyə gətirilməsinə və ölkədən çıxarılmasına, yaxud Azərbaycan ərazisindən tranzit daşınmasına idxal karantin icazəsi və fitosanitar sertifikatın verilməsi, ölkəyə gətirilən və ölkədən aparılan karantin nəzarətində olan məhsulların, habelə nəqliyyat vasitələrinin karantin yoxlanışı və laboratoriya ekspertizasının aparılması da vardır.

## 6.9. Baytarlıq haqqında yeni qanun

AR-nın "*Baytarlıq haqqında*" 922-IIQ nömrəli yeni Qanunu 31 may 2005-ci il tarixində qəbul edilmişdir. Bu qanun həmçinin Azərbaycanın baytarlıq xidmətini dövlət və qeyri-dövlət xidmətinə ayırmışdır. Qanuna əsasən, dövlət baytarlıq xidməti heyvanların xüsusi təhlükəli xəstəlikləri, o cümlədən heyvan və insanlar üçün ümumi olan xəstəliklərin baş verdiyi ölkələrdən heyvanların, heyvan mənşəli məhsulların, xammalın, yem, yem əlavələrinin və digər kənd təsərrüfatı məhsullarının idxal və ixracına məhdudiyyət və ya qadağa qoymaq hüququna malik-

---

[111]Prezidentin "*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət agentliyi və dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə*" Fərmanı.

dir.[112] Xidmətə idxal və ya ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baytarlıq-sanitariya vəziyyətini yoxlamaq və müvafiq baytarlıq sənədi vermək həvalə edilmişdir. Bu Xidmət həmçinin baytarlıq preparatlarının idxal və ixracı üçün icazə vermək və bu proseslərə nəzarət etmək hüququna malikdir. Qanuna əsasən yalnız Heyvan Sağlamlığı Təşkilatının tərtib etdiyi siyahıya daxil edilən xəstəliklərə və digər yoluxucu xəstəliklərə görə kliniki sağlam və təhlükəsiz heyvanların və inkubasiya üçün yumurtaların və yalnız bu xəstəliklərə görə sağlam zonadan və yoluxma mənbəyindən müəyyən edilmiş məsafədən kənarda yerləşən təsərrüfatlardan idxalına icazə verilir. Qanunda dövlət baytarlıq nəzarətində olan yüklərin göndərilməsindən əvvəl onlara beynəlxalq baytarlıq sertifikatının verilməsi tələb olunmuşdur.[113] Müvafiq beynəlxalq sertifikatların verilməsi həmçinin insanların qidalanması üçün nəzərdə tutulan ət, süd və digər heyvan mənşəli məhsulların ixracı üçün və heyvanların yemləndirilməsi, əczaçılıq, sənaye və kənd təsərrüfatında istifadə edilən heyvan mənşəli məhsulların idxal və ixracı üçün tələb edilir.[114] Qanuna uyğun olaraq, hüquqi və fiziki şəxslər qeydiyyatdan keçmiş baytarlıq preparatları, yem və yem əlavələrini idxal və ixrac edə bilərlər.[115] Bundan əlavə, qeydiyyata alınmayan baytarlıq preparatları, yem və yem əlavələrinin idxalına təbii fəlakət və ya güclü epizootiya təhlükəsi hallarında icazə verilir. Belə hallarda istehsalçı ölkələrdə onların qeydiyyatı və istifadəsini təsdiq

---

[112] AR Prezidentinin *"Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə*" 316 nömrəli, 22 noyabr 2005-ci il tarixli Fərmanına əsasən, bu cür hallarda idxal və ixraca məhdudiyyət və ya qadağa qoymaq, həmçinin idxal və ixrac üçün icazə vermək Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilmişdir.

[113] Qanunun 14.3 maddəsinə əsasən, bu cür sertifikat ixrac edən ölkə tərəfindən baytarlıq sahəsində müvafiq beynəlxalq təşkilatın təklif etdiyi müvafiq nümunələrə uyğun ixrac və idxal edən, lazım gələrsə tranzit ölkələrin birgə seçdiyi dildə tərtib edilməlidir. Müvafiq beynəlxalq təşkilat dedikdə, Heyvan Sağlamlığı Təşkilatı nəzərdə tutulur.

[114]14.5-ci və 14.6-ci maddələrdə həmin sertifikatların Heyvan Sağlamlığı Təşkilatının tövsiyəsinə uyğun hazırlanması nəzərdə tutulur.

[115] Qeydiyyatdan keçməmiş baytarlıq preparatları, yem və yem əlavələri isə Azərbaycana yalnız sərgilərdə, yarmarkalarda, konfranslarda nümayiş etdirilmək, elmi və digər məqsədlər üçün satış hüququ olmadan gətirilə bilərlər.

edən sənədlər olduqda Kənd Təsərrüfatı Nazirliyi icazə verə bilər. Qanunda baytarlıq preparatlarının, yem və yem əlavələrinin idxal və ixracı qaydalarının işlənib hazırlanması icra hakimiyyəti orqanına tapşırılmışdır. Prezidentin 316 nömrəli Fərmanına əsasən həmin funksiyanı Nazirlər Kabineti yerinə yetirməlidir.

AR-nın"*Baytarlıq haqqında*" Qanunun və AR Prezidentin 316 nömrəli Fərmanının bəzi müddəalarının icra edilməsi məqsədilə 7 mart 2006-cı il tarixində AR Nazirlər Kabineti bir neçə normativ-hüquqi aktları təsdiq edən 65 nömrəli Qərar qəbul etmişdir.[116]

7 iyul 2006-cı il tarixində Nazirlər Kabinetinin 167 nömrəli Qərarı ilə "*Azərbaycan Respublikasında baytarlıq fəaliyyəti ilə məşğul olmaq üçün dövlət baytarlıq orqanında uçota durma Qaydaları*" və "*Heyvanların və əhalinin sağlamlığı üçün təhlükə törədən xüsusi təhlükəli xəstəliklərin Siyahısı*" təsdiq edilmişdir.

Bundan əlavə, Prezidentin 316 nömrəli Fərmanının digər bəndlərinin icrasını təmin etmək məqsədilə baytarlıq fəaliyyəti ilə bağlı daha yeddi normativ-hüquqi aktlar hazırlanmış, lakin hələ də təsdiq edilməmişdir.[117] Bu qaydalar xarici ticarətə dair müddəaları da nəzərdə tut-

---

[116] AR Nazirlər Kabinetinin 65 nömrəli 7 mart 2006-cı il tarixli Qərarı ilə təsdiq edilmiş aktlar aşağıdakılardır: "*Baytarlıq sahəsində profilaktikası, diaqnostikası və ləğvi dövlət büdcəsindən maliyyələşdirilən heyvanların xüsusi təhlükəli xəstəliklərinin Siyahısı*"; "*Epizootiya monitorinqinin aparılması Qaydası*"; "*Baytarlıq preparatlarının ehtiyatının yaradılması, saxlanması və istifadəsi Qaydaları*" və "*Dövlət baytarlıq nəzarəti vacib olan obyektlərin mülkiyyətçilərinin vəsaiti hesabına qanunla müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsinin Qaydası və Şərtləri*".

[117] Bu aktlar aşağıdakılardır: "*Dövlət baytarlıq nəzarətində olan məhsulların baytarlıq normalarının tələblərinə uyğunluğunun yoxlanılması və onlara baxış keçirilməsi Qaydaları*"; "*Heyvanların profilaktiki və məcburi peyvənd edilməsi, xəstəlik mənbələrində dezinfeksiya, dezinseksiya və deratizasiya aparılması Qaydaları*"; "*Baytarlıq preparatlarının saxlanması və daşınması Qaydaları*"; "*Dövlət sərhədlərində baytarlıq nəzarəti məntəqələrinin yerləşdirilməsinin və fəaliyyətinin sərhəd rejiminin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməsi barədə Qaydalar*"; "*Başqa ölkələrdən idxal edilən heyvanların sağlamlığını müəyyənləşdirmək üçün onların təcrid olunmuş halda saxlanması və müddətinin müəyyən edilməsi Qaydala-*

muşdur. Məsələn, Azərbaycan ərazisini xaricdən keçə biləcək xəstəliklərdən qorumaq üçün başqa ölkələrdən gətirilən heyvanların təcrid olunmuş halda saxlanması qaydaları; idxal və ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın, yemlərin, yem əlavələrinin, bioloji preparatların və s. yoxlanılması proseduru, həmçinin baytarlıq preparatlarının, yem və yem əlavələrinin idxalı zamanı onlara verilmiş bütün sənədlərin yoxlanılması müəyyən edilmişdir.

## 6.10. Yekun

Sanitar və fitosanitar sahələri tənzimləyən qanunvericilik bu günə qədər kifayət dərəcədə işlənib hazırlanmamışdır. Bu Bölmənin çərçivəsində qeyd edildiyi kimi bəzi qanunların icra mexanizmi olan qaydalar hələ də mövcud deyildir. Bundan əlavə, Azərbaycanda qüvvədə olan sanitariya tələbləri və normaları istər Sovetlər dövründə hazırlanmış istərsə də bu yaxında Rusiyada qəbul edilmiş tələblər və normalardan ibarətdir. Bundan başqa, onlar rus dilindədir və aşkarlıq tələbinə[118] baxmayaraq əldə oluna bilən deyildir. Avropa İttifaqının və ya Ümumdünya Ticarət Təşkilatının tələblərinə cavab verən müvafiq prosedurlar qanunvericilikdə nəzərdə tutulmamışdır. "*Fitosanitar nəzarəti haqqında*" Qanunun qüvvəyə minməsi ilə əlaqədar bu sahədə vəziyyət dəyişə bilər. Lakin, yuxarıda göstərildiyi kimi bu qanunun nəzərdə tutduğu müddəaların həyata keçirilməsi üçün bir sıra qaydalar hələ də işlənib hazırlanmalıdır.

---

*rı*"; "*Karantin müddətində bazarların, heyvan tədarükü (kəsimi) məntəqələrinin, əlaqəli müəssisələrin, həmçinin yarmarkaların, hərracların, sərgilərin, dövlət baytarlıq nəzarətinə cəlb edilən yüklərin daşınması ilə əlaqədar onların kütləvi toplanılan yerlərinin fəaliyyətinin müvəqqəti dayandırılması Qaydaları"; "Baytarlıq tədbirlərinin təşkili və həyata keçirilməsi Qaydaları*".

[118] AR-nın "*Sanitariya-epidemioloji salamatlıq haqqında*" 371 nömrəli, 10 noyabr 1992-ci il tarixli Qanunun 3-cü maddəsi.

## BÖLMƏ 7. İDXAL VƏ İXRACLA BAĞLI HESABLAŞMALARA DAİR TƏLƏBLƏR

AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli, 24 iyun 1997-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydalarına uyğun olaraq xarici ticarətdə hesablaşmalara dair bir sıra məhdudiyyətlər nəzərdə tutulur. Bu Fərmandan əvvəl qüvvədə olan xarici ticarəti tənzimləyən normativ aktlar da xarici ticarətdə hesablaşmalar məsələsini tənzimləyir, onlara oxşar məhdudiyyətlər qoyurdu.[119]

### 7.1. İxrac

Hazırda ixracda hesablaşmalara dair qüvvədə olan tələb ondan ibarətdir ki, ixrac əməliyyatlarındada mal (xidmət) ixracı bir qayda olaraq yalnız onların haqlarının qabaqcadan ödənilməsi, yaxud geri çağırılmayan akkreditiv açılması yolu ilə və ya birinci dərəcəli bankların zəmanəti əsasında həyata keçirilir. Bankların birinci dərəcəlilik əlamətləri beynəlxalq kredit reytinq agentlərinin təminatlarına əsasən Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilir.[120]

---

[119] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası xarici ticarətin müvəqqəti qaydaları haqqında*" 62 nömrəli, 15 fevral 1994-cü il tarixli, "*Azərbaycan Respublikasında xarici ticarətin təşkili haqqında*" 222 nömrəli, 2 iyun 1994-cü il tarixli, "*Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında*" 247 nömrəli, 15 noyabr 1995-ci il tarixli Qərarları; AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi haqqında*" 481 nömrəli, 6 avqust 1996-cı il tarixli, "*Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında*" 520 nömrəli, 17 dekabr 1996-cı il tarixli Fərmanları.

[120] AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli, 24 iyun 1997-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydalarının 12.1 bəndi.

Müvafiq olaraq, ixracatçı malların (xidmətlərin) haqqının əvvəlcədən ödənildiyi, yaxud akkreditiv və ya birinci dərəcəli bankların zəmanəti təqdim edildiyi barədə Azərbaycan Respublikasında valyuta əməliyyatlarının aparılması üçün icazəsi olan müvafiq müvəkkil bankların bunu təsdiqləyən sənədləri gömrük orqanlarına təqdim etməlidir.[121]

### 7.2. İxracdan əldə olunan gəlirlərin köçürülməsi

1990-cı illərin əvvəlində Azərbaycan hökuməti ixracdan əldə olunan gəlirlərə bir sıra məhdudiyyətlər qoymuşdur. Belə ki, 1993-cü ildə Azərbaycan Respublikasının vahid valyuta fonduna valyuta satışının Qaydaları qəbul olunmuşdur.[122] Məhsul (iş, xidmət) ixracından əldə olunan valyuta vəsaitindən ayırmaların normativləri təsdiq edilməsi və Vahid Valyuta Fondunun yaradılması və ondan istifadə olunması Qaydaları 1994-cü ilin aprel ayında qəbul olundu.[123] Valyuta vəsaitindən ayırmaların normativləri müvafiq məhsul və xidmətlər üzrə fərqlənirdi.

Bu məhdudiyyətin ömrü uzun çəkmədi və o 1995-ci ilin fevral ayında aradan götürüldü. Azərbaycan Respublikasının valyuta ehtiyatlarının idarə edilməsi Azərbaycan Respublikasının Milli Bankına həvalə olunmaqla, Azərbaycan Respublikasının Vahid Valyuta Fondu 1995-ci

---

[121] AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli, 24 iyun 1997-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydalarının 12.1 bəndi.

[122] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasının vahid valyuta fonduna valyuta satışının qaydaları*" haqqında 4 yanvar 1993-cü il tarixli, 1 nömrəli Qərarı.

[123] AR Prezidentinin "*Azərbaycan Respublikası Vahid Valyuta Fondunun yaradılması və ondan istifadə olunması qaydalarının təsdiqi haqqında*" 135 nömrəli 25 aprel 1994-cü il tarixli Fərmanı və "*Müəssisə və təşkilatların məhsul (iş, xidmət) ixracından əldə olunan valyuta vəsaitindən ayırmaların normativlərinin təsdiq edilməsi haqqında*" 77 nömrəli, 25 aprel 1994-cü il tarixli Sərəncamı.

il martın 10-dan ləğv edildi və onun vəsaitinin qalıqları Milli Bankın valyuta ehtiyatlarına köçürüldü.[124]

### 7.3. İdxal

AR Prezidentinin 91 nömrəli, 10 yanvar 1994-cü il tarixli Fərmanına (qüvvədən düşüb) əsasən xarici ölkələrdən mal alınmasına və xidmət göstərilməsinə görə haqqın qabaqcadan ödənişi qadağan olunurdu və idxal əməliyyatların yerinə yetirilməsində akkreditiv forması tətbiq edilməsi nəzərdə tutulurdu. İdxal əməliyyatları zamanı pulun qabaqcadan ödənişi müstəsna hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin icazəsi ilə həyata keçirilirdi.[125] Bu məhdudiyyət 1997-ci ilə qədər digər normativ aktlarla təsdiqlənmişdi.[126] Hazırda idxal əməliyyatları üçün heç bir xüsusi hesablaşma növü nəzərdə tutulmayıb. Mal və xidmətlərin ödənilməsi üçün cari bank hesablardan köçürmələr həm avans şəklində həm də idxaldan sonra edilə bilər.[127]

Avans yolu ilə ödənilmiş məbləğin müqabilində 365 təqvim günü müddətində mallar ölkəyə idxal edilməli, işlər görülməli və ya xidmətlər göstərilməlidir. Həmin müddət ərzində mallar idxal edilmədikdə, işlər görülmədikdə, xidmətlər göstərilmədikdə və ya avans yolu ilə ödənilmiş məbləğ geri qaytarılmadıqda müvəkkil bank əməliyyatla əlaqədar bütün sənədləri (müqavilə, invoys, ödəniş sənədləri, bankın və rezidentin əsa-

---

[124] AR Prezidentinin "*Azərbaycan Respublikasında valyuta tənzimlənməsinin sərbəstləşdirilməsi haqqında*" 287 nömrəli, 28 fevral 1995-ci il tarixli Fərmanı.

[125] AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin səmərəliyinin artırılması tədbirləri haqqında*" 91 nömrəli 10 yanvar 1994-cü il tarixli Fərmanın 1-ci bəndi.

[126] AR Prezidentinin "*Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında*" 609 nömrəli 24 iyun 1997-ci il tarixli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaların 13-cü bəndi.

[127] AR Milli Bankın "*Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında*" 12 nömrəli 27 may 2002-ci il tarixli Qaydalarının 2.2.2 və 3.2.2. bəndləri.

slandırılmış izahatı və s.) əlavə etməklə, Azərbaycan Respublikasının Milli Bankına məlumat verməlidir. Həmin tələblər təkrar ixrac əməliyyatlarına da tətbiq olunur. Mallar tam ödənildikdə malların ölkəyə idxal olunmalı müddət 180 gün təşkil edir.[128]

Ödəniş idxal olunan malların gətirilməsindən sonra baş verdikdə, idxalatçı müqavilənin və gömrük bəyannaməsinin surətini banka təqdim etməlidir. Üçüncü şəxslər tərəfindən ödəmələr yalnız Milli Bank tərəfindən icazə əsasında həyata keçirilir. Müqavilədə mal göndərənə ödəniləcək vəsaitlərin üçüncü şəxsin bank hesabına ödənilməsi nəzərdə tutularsa, belə ödənişlər icra edilə bilər.[129]

---

[128] Bax qeyd 127-yə.
[129] Bax qeyd 127-yə.

# BÖLMƏ 8. İDXAL VƏ İXRAC OLUNAN MALLARA TƏTBİQ OLUNAN GÖMRÜK RÜSUMLARI, VERGİLƏR VƏ DİGƏR ÖDƏNİŞLƏR

## 8.1. Gömrük rüsumları[130]

Azərbaycan Respublikasının gömrük rüsumları cədvəlləri mütəmadi dəyişikliklərə məruz qalaraq Nazirlər Kabinetinin Qərarları vasitəsilə qəbul olunurdular.[131] Azərbaycanın gömrük rüsumları cədvəlində malların təsnifatı bir neçə inkişaf mərhələsindən keçmişdir. Beynəlxalq səviyyədə malların vahid təsnifatın olması xarici ticarəti qarşısında maneələrin aradan qaldırılması üçün olduqca vacib bir məsələdir. Bunu nəzərə alaraq, Ümumdünya Gömrük Təşkilatı çərçivəsində bu istiqamətdə müvafiq işlər görülmüş, 14 iyun 1983-cü il tarixdə Malların təsviri və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında beynəlxalq Konvensiya (HS Konvensiyası) qəbul olunmuşdur. HS Konvensiyasının 3-cü maddəsinə uyğun olaraq, razılaşan tərəflər öz idxal və ixrac ticarətinə aid statistik məlumatları Harmonikləşdirilmiş Sistemin

---

[130] Azərbaycan Respublikasının gömrük rüsumları haqqında əlavə məlumat üçün bu sənədinin 2.2.3 bəndinə baxa bilərsiz.

[131] AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük vergiləri tariflərinin dərəcələri haqqında*" 401 nömrəli, 21 iyul 1993-cü il tarixli; "*Azərbaycan Respublikasının ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında*" 252 nömrəli, 27 iyun 1994-cü il tarixli; "*Azərbaycan Respublikasında ixrac və idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında*" 90 nömrəli, 24 aprel 1995-ci il tarixli; "*Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında*" 62 nömrəli, 16 iyun 1997-ci il tarixli; "*Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında*" 91 nömrəli, 22 aprel 1998-ci il tarixli; "*Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında*" 80 nömrəli, 12 aprel 2001-ci il tarixli; və "*Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarına dəyişiklik edilməsi barədə*" 161 nömrəli, 22 dekabr 2003-cü il tarixli Qərarları.

altı rəqəmli koduna, yaxud bu cür məlumatların dərc edilməsinin kommersiya sirri və ya dövlət təhlükəsizliyi mənafeyi kimi müstəsna səbəblərə görə qadağan edilmədiyi təqdirdə, həmin tərəfin təşəbbüsü ilə bundan da geniş təfərrüatlı təsnifata uyğun olaraq dərc edir.

SSRİ HS Konvensiyasının iştirakçısı idi və 1990-cı ildə doqquz rəqəmli xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturasını (XİN ƏN) qəbul etmişdir. Bu nomenklatura HS təsnifatı əsasında hazırlanmışdır. Müstəqilliyini qazanandan sonra Azərbaycan bu nomenklaturadan istifadə etməyə davam edirdi. Azərbaycan da daxil olmaqla Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri 3 noyabr 1995-ci il tarixdə Ümumdünya Gömrük Təşkilatının HS təsnifatına əsaslanan vahid MDB XİN ƏN qəbul etmişdilər.[132] MDB XİN ƏN-nin doqquz rəqəmli sistemi də altı rəqəmli HS təsnifatı əsasında qurulmuşdu. O, 1 yanvar 1997-ci il tarixində qüvvəyə mindi. Beləliklə, Azərbaycanın HS Konvensiyasına yalnız 2000-ci ildə qoşulmasına[133] baxmayaraq, onun gömrük rüsumları cədvəli 2000-ci ildən əvvəl də HS əsasında tərtib edilmişdir.

Azərbaycanın 12 aprel 2001-ci il tarixli gömrük rüsumları cədvəli HS-1996 əsasında qurulmuşdur. 22 dekabr 2003-cü il tarixdə Beynəlxalq Harmonik Sistemin yeni variantına (HS-2002) uyğunlaşdırılması məqsədilə gömrük rüsumların cədvəli on rəqəmli təsnifat sisteminə keçirildi.

---

[132] Müstəqil Dövlətlər Birliyinin xarici iqtisadi fəaliyyətin vahid əmtəə nomenklaturası haqqında 3 noyabr 1995-ci il tarixli Sazişin 1-ci maddəsi.

[133] AR-nın "*Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem haqqında Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya düzəliş protokoluna qoşulmaq barədə*" 872-IQ nömrəli, 2 may 2000-ci il tarixli Qanunu.

### 8.2. Əlavə dəyər vergisi

Azərbaycana gətirilən mallar əlavə dəyər vergisinə məruz qalır (ƏDV). ƏDV Azərbaycanda 31 dekabr 1991-ci il tarixdə "*Əlavə dəyər vergisi haqqında*" Qanunun qəbul olunması ilə tətbiq edilmişdir. Bu qanun 2000-ci ildə Vergi Məcəlləsinin qəbulundan sonra qüvvəsini itirdi. Vergi Məcəlləsinə uyğun olaraq vergi tutulan idxalın dəyəri malların gömrük dəyərindən və mallar Azərbaycan Respublikasına gətirilərkən ödənilməli olan rüsumlardan və vergilərdən (ƏDV nəzərə alınmadan) ibarətdir.[134]

#### 8.2.1. ƏDV-dən azad olunan idxal

Bəzi idxal olunan mallar ƏDV-dən azaddır. İki növ azadolma mövcuddur. Birinci, bəzi idxal növlərindən ƏDV tutulmur.[135] İkinci, bəzi mallar AR Nazirlər Kabinetinin qərarları əsasında ƏDV-dən azad olunurlar.[136]

### 8.3. Aksiz vergisi

Alkoqollu içkilərin, tütün məmulatlarının və neft məhsullarının Azərbaycan Respublikasına idxalına aksiz vergisi tətbiq edilir. Aksiz vergisinin tətbiqi Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər normativ hüquqi aktlarla tənzimlənir.

Aksiz vergisinin tətbiqi ilk dəfə olaraq istehlak mallarına aksiz vergisi tətbiq edən "*Aksiz Vergisi haqqında*" 31 dekabr 1991-ci il tarixli

---

134 Vergi Məcəlləsinin 162.1 maddəsi (Vergi Məcəlləsi 905-IQ nömrəli, 11 iyul 2000-ci il tarixli Qanunla təsdiq edilmişdir).

135 Vergi Məcəlləsinin 164.1 maddəsi.

136 Vergi Məcəlləsinin 164.2 maddəsinə uyğun olaraq qəbul olunmuş Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında*" 11 nömrəli, 31 yanvar 2005-ci il tarixli Qərarı.

Qanunla[137] tətbiq edilmişdir. "*Aksiz Vergisi haqqında*" Qanun Ali Sovetin Milli Şurasının 31 dekabr 1991-ci il tarixli Qərarı[138] ilə tətbiq edilmişdir.

Vaxtı ilə aksiz vergisi və aksiz dərəcələri tətbiq edilən mallar bir sıra normativ aktlarla müəyyən olunmuşdur. Hazırda bu normativ aktlar qüvvədən düşüb.[139]

---

[137] Bu Qanun AR-nın "*Azərbaycan Respublikasının Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında*" 905-IQ nömrəli, 11 iyul 2000-ci il tarixli Qanunu ilə ləğv edilmişdir.

[138] "*Əlavə dəyər vergisi haqqında" və "Aksizlər haqqında*" *Azərbaycan Respublikası Qanunlarının qüvvəyə minməsi qaydası barəsində*" 44 nömrəli 31 dekabr 1991-ci il tarixli Qərar. Bu Qərar 219-IIQD nömrəli, 23 noyabr 2001-ci il tarixli qanunla ləğv edilmişdir.

[139] Milli Məclisin "*Bəzi məhsul növlərinin aksiz dərəcələrinin azaldılması və yeni aksizlər tətbiq edilməsi haqqında*" 165 nömrəli, 10 iyun 1992-ci il tarixli Qərarı bəzi istehlak malları üçün aksiz dərəcələrini azaltmış və neft məhsulları üçün aksiz dərəcələrini müəyyən etmişdir. Bu Qərar 219-IIQD nömrəli, 23 noyabr 2001-ci il tarixli qanunla ləğv edilmişdir. Milli Məclisin "*Bəzi malların aksiz dərəcələrinin dəyişdirilməsi və yeni məhsullara aksizlər tətbiq edilməsi haqqında*" 550 nömrəli, 31 mart 1993-cü il tarixli Qərarı aksiz vergisinə cəlb olunan malların yeni siyahısını müəyyən edir. Bu Qərar 219-IIQD nömrəli, 23 noyabr 2001-ci il tarixli qanunla ləğv edilmişdir. AR Nazirlər Kabinetinin "*MDB ölkələrinin hüdudları kənarından respublikaya gətirilən minik avtomobillərinə aksiz vergisi tətbiq edilməsi haqqında*" 35 nömrəli, 27 mart 1996-cı il tarixli Qərarı MDB ölkələri istisna olmaqla digər ölkələrdən idxal edilən minik avtomobillərinin ümumi dəyərindən 15% aksiz vergisi ödənilməsini tələb edirdi. Bu Qərar AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikası ərazisinə gətirilən minik avtomobillərinin aksiz vergisinə cəlb edilməsi haqqında*" 101 nömrəli, 2 sentyabr 1997-ci il tarixli Qərarı ilə ləğv edilmişdir. Bu Qərar MDB ölkələri hüdudları kənarında istehsal edilən və yaşı istehsal tarixinin bir ilindən artıq olmayan minik avtomobillərinin idxalı üçün minik avtomobillərinin gömrük dəyərinin 15% aksiz vergisi ödənilməsini tələb edirdi. Bu Qərarda öz növbəsində 22 nömrəli, 24 yanvar 2001-ci il tarixli Qərarı ilə ləğv edilmişdir. AR Nazirlər Kabinetinin "*MDB ölkələrinin istehsalı olmayan gətirilən aksiz vergisinə cəlb edilən malların aksiz dərəcələri haqqında*" 80 nömrəli, 2 iyul 1996-cı il tarixli Qərarı MDB ölkələrindən kənarda istehsal edilən alkoqollu içkilərin və tütün məmulatlarının idxalı üçün aksiz dərəcələrini müəyyən edir. Bu Qərar AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında*" 20 nömrəli, 19 yanvar 2001-ci il tarixli Qərarı ilə ləğv edilmişdir.

### 8.3.1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi

Vergi Məcəlləsinin 190-cı Maddəsi, o cümlədən yeyinti spirti, pivə və bütün növ alkoqollu içkilər, tütün məmulatları və neft məhsulları da daxil olmaqla aksiz vergisinə cəlb olunan malların siyahısını müəyyən edir. Burada neft məhsullarından başqa bütün mallar üçün aksiz vergisi dərəcələri müəyyən edilir. 188-ci Maddədə fiziki şəxsin fərdi istehlakı üçün 3 litr alkoqollu içkinin və 3 blok siqaretin idxalı, həmçinin Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş bakındakı yanacaq, həmçinin, Azərbaycan Respublikası ərazisindən tranzitlə daşınan mallar, təkrar ixrac üçün nəzərdə tutulan mallar istisna edilməklə, malların Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxalı, təkrar ixrac üçün nəzərdə tutulan və girovla təminat verilən mallar aksiz vergisindən azad edilir.

Vergi Məcəlləsinin 190.2-ci Maddəsi müvafiq dövlət orqanlarına aksiz vergisinə cəlb olunan malların idxalı üçün aksiz dərəcələrini müəyyən etmək səlahiyyəti verir. Vergi Məcəlləsinin 182.1-ci Maddəsinə uyğun olaraq aksiz vergisi malların satış qiymətinə daxil edilir. Aksiz vergisinə cəlb olunan malların ixracına sıfır (0) dərəcə aksiz dərəcəsi tətbiq edilir.

### 8.3.2. Digər normativ hüquqi aktlar

Nazirlər Kabinetinin 19 yanvar 2001-ci il tarixli Qərarı[140] "*Azərbaycan Respublikasının Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında*" Azərbaycan Respublikasının 905-IQ nömrəli, 11 iyul 2000-ci il tarixli Qanununa uyğun olaraq aksiz vergisinə cəlb olunan malların siyahısını müəyyən edir.

---

[140] Azərbaycan Respublikasında istehsal edilən yeyinti spirti, pivə, alkoqol və tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələrini müəyyən edən "*Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların dərəcələrinin təsdiq edilməsi haqqında*" 20 nömrəli, 19 yanvar 2001-ci il tarixli Qərar.

Nazirlər Kabinetinin 209 nömrəli, 15 noyabr 2005-ci il tarixli Qərarı[141] Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrini müəyyən edir.

## 8.4. Gömrük rəsmiləşdirilməsi yığımları

Azərbaycan Respublikasına idxal olunan mallardan gömrük rüsumları və vergilərdən başqa gömrük rəsmiləşdirilməsi yığımları da alınır. Bu yığımların məbləği idxal rüsumlarını tənzimləyən sənədlərdə paralel olaraq müəyyən edilir.[142]

AR Nazirlər Kabinetinin "*Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında*" 80 nömrəli, 12 aprel 2001-ci il tarixli Qərarına əsasən gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların məbləği malın gömrük dəyərindən 0,15 faiz təşkil edir. Gömrük orqanlarının iş vaxtından kənar vaxtda və müəyyən edilmiş yerdən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında hasilatın pay bölgüsü haqqında sazişlərə əsasən Azərbaycan Respublikasının payına düşən mənfəət karbohidrogenlərinin neft kəməri vasitəsi ilə ixracı, habelə dövlət zəmanətli kreditlər hesabına alınmış uçuş aparatlarının, eləcə də pasport və şəxsiyyət vəsiqələri blanklarının idxalı üzrə hər bir yük gömrük bəyannaməsi üçün malın dəyərindən asılı olmayaraq 275 ABŞ dolları miqdarında yığımları alınır.

---

[141] "*Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında*" *Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20 nömrəli, 19 yanvar 2001-ci il tarixli, qərarına dəyişiklik edilməsi barədə*" 209 nömrəli 10 noyabr, 2005-ci il tarixli Qərar.

[142] Bax qeyd 131-ə.

Azərbaycan Respublikasının gömrük sərhədindən qrant haqqında müqaviləyə (qərara) əsasən qrant kimi alınan maddi yardım, humanitar və texniki yardım məqsədi ilə, habelə Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndəliklərin rəsmi və onların heyət üzvlərinin şəxsi istifadəsi üçün keçirilən mallar və nəqliyyat vasitələri, elektrik enerjisinin qarşılıqlı ötürülməsi üzrə gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınmır.

Gömrük Yük Bəyannaməsinin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dolları məbləğində ödənc alınır.

Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 ABŞ dolları, hər əlavə Tranzit Yük Bəyannamələri üçün 10 ABŞ dolları miqdarında gömrük yığımları alınır.

Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən (o cümlədən müvəqqəti gətirilən) nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün 20 ABŞ dolları, digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları məbləğində yığım alınır.

Bütün gömrük yığımları Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla ödənilir.

## 8.5. İdxal lisenziyanın verilməsinə görə ödənilən rüsum

Etil (yeyinti) spirtin, alkoqollu içkilərin və tütün məmulatlarının idxalı üçün lisenziyanın verilməsinə görə şərti maliyyə vahidinin (ŞMV)[143] 5 min misli alınır.[144] Prekursorların idxalı, ixracı və tranzit nəql

---

143 1 ŞMV 1.1 manata bərabərdir.

144 Nazirlər Kabinetinin "*Xüsusi razılıq (lisenziya) alınması tələb olunan bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri barədə*" 180 nömrəli, 18 noyabr 2002-ci il tarixli Qərarı.

edilməsi üçün lisenziya verilməsinə görə alınan məbləğ 200 ŞMV təşkil edir.[145]

## 8.6. İxracat vergisi

İxracat vergisi Azərbaycanda 1995-1997-ci illərdə tətbiq olunurdu. İxrac vergisi "*İxracat vergisi haqqında*" Qanunla təqdim olunmuşdur.[146] Bu qanuna uyğun olaraq ixracat vergisinin obyektini Azərbaycan Respublikasının hüdudlarından kənara sərbəst dönərli valyuta ilə satılan strateji məhsullar təşkil edirdi.[147] Qanun 13 uyun 1997-ci il tarixində qüvvədən düşüb.[148]

---

[145] Bax qeyd 143-ə.

[146] "*İxracat vergisi haqqında*" 1002 nömrəli, 28 mart 1995-ci il tarixli Qanun.

[147] Strateji məhsulların siyahısı üçün Prezidentin "*Azərbaycan Respublikasından ixracı məhdudlaşdırılan strateji əhəmiyyətli malların siyahısının təsdiqi haqqında*" 118 nömrəli, 10 sentyabr 1992-ci il tarixli Sərəncamına və Nazirlər Kabinetinin "*Strateji əhəmiyyətli malların ixracının lisenziyalaşdırılması haqqında*" 515 nömrəli, 22 sentyabr 1992-ci il tarixli Qərarına baxın (hər iki sənəd qüvvədən düşüb).

[148] *"İxracat vergisi haqqında Azərbaycan Respublikası Qanununun qüvvədən düşməsi barədə"* 322-IQD nömrəli, 13 iyun 1997-ci il tarixli Qanun.

*Redaksiya heyəti:*

**Heydər Babayev (sədr)**
**Mikayıl Cabbarov (sədr müavini)**
**Vaqif Rüstəmov**
**Səməd Bəşirli**
**Ədalət Muradov**
**İqor Kavass**

*"AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ TİCARƏT SAHƏSİNDƏ QANUNVERİCİLİYİNİN TƏHLİLİ"*

*Müəlliflər: Abdullayev Sabit Hənifə oğlu*
*Dadaşeva Günay Fuad qızı*
*Feyzullayev Cəmil Əkbər oğlu*
*Azərbaycan Respublikasının ÜTT-yə Üzv olması üzrə*
*ABŞ Texniki Yardım Layihəsinin hüquq məsləhətçiləri*

Çapa imzalanmışdır: 04.08.2006
Kağız formatı: 60x84 1/16
Həcmi: 5,4 ç.v.; Sifariş: 463; Sayı: 1000

Kitab "ADİLOĞLU" nəşriyyatında
çapa hazırlanmışdır.
Ünvan: Bakı şəh., Nizami küç., 96/12
Tel.: 498-68-25; faks: 498-08-14
Web: www.adiloglu.az;
E-mail: info@adiloglu.az

"TS" mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
Ünvan: İ.Məmmədov küçəsi, 1059;
Tel.: 418-68-25